Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On beşinci sessiya
Yaz

65-ci cild

29 mart 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XV SESSİYASI İCLASININ

# PROTOKOLU № 163

*Milli Məclisin iclas salonu.*
*29 mart 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 104 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 96 |
| Yetərsay | 83 |

## İclasa dəvət olunmuşlar:

**Ülvi Hüseynli**, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri.

**Cəlil Rüstəmov**, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri.

## İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:

1. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” və “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusi-

ya qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (ikinci oxunuş).

2. "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

3. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. Azərbaycan Respublikasının 1994-cü il 8 fevral 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

10. "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

11. "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

14. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

15. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Peşə təhsili

haqqında” və “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

16. Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

17. “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

18. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

19. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Sosial sığorta haqqında”, “Gömrük tarifi haqqında” və “Reklam haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

20. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və “İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

21. “Media haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

| | |
|---|---|
| **Təklif:** Gündəlik qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.09 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**1. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Ziyafət Əsgərov, Fazil Mustafa, Məlahət İbrahimqızı, Əli Məsimli

| | |
|---|---|
| **Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.21 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.22 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.22 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**2. "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Fəzail İbrahimli, Etibar Əliyev, Aydın Mirzəzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** 7–12-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 13–18-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**3. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Hicran Hüseynova, Bəhruz Məhərrəmov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.25 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**4. Azərbaycan Respublikasının 1994-cü il 8 fevral 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.26 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**5. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**6. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.28 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verмədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**7. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.29 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**8. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.30 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Fəzail İbrahimli, Ziyafət Əsgərov, Sadiq Qurbanov, Azər Badamov, Zahid Oruc, Siyavuş Novruzov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**10. “Fövqəladə vəziyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**11. “Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Siyavuş Novruzov, Fazil Mustafa, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**12. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci və 3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 91 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**13. "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 96 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**14. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəxtiyar Əliyev, Əziz Ələkbərov, Zahid Oruc, Hicran Hüseynova, Razi Nurullayev, Musa Quliyev, Bəhruz Məhərrəmov, Hikmət Məmmədov, Emin Hacıyev, Fazil Mustafa, Musa Qasımlı, Azər Badamov, Sabir Rüstəmxanlı, Sədaqət Vəliyeva

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**15. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Peşə təhsili haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**16. Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Tahir Mirkişili, Musa Quliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**17. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Məlahət İbrahimqızı, Hicran Hüseynova, Razi Nurullayev, Aydın Hüseynov, Sabir Rüstəmxanlı, Siyavuş Novruzov, Musa Quliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**18. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əminə Ağazadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**19. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Sosial sığorta haqqında”, “Gömrük tarifi haqqında” və “Reklam haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Musa Quliyev, Fəzail Ağamalı

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**20. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və “İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Nurlan Həsənov, Siyavuş Novruzov, Rüfət Quliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.47 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**21. "Media haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.51 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*29 mart 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 96 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, Milli Məclis sədrinin başçılığı ilə nümayəndə heyəti martın 22-dən 26-dək İsveçrənin Cenevrə şəhərində işgüzar səfərdə olmuşdur. Səfərdə məqsəd Parlamentlərarası İttifaqın 148-ci Assambleyasında, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Üçüncü Konfransında və Asiya Parlament Assambleyasının koordinasiya iclasında iştirak etmək idi.

Parlamentlərarası İttifaqın 148-ci Assambleyasında "Parlament diplomatiyası: sülh və qarşılıqlı anlaşma üçün körpülərin salınması" mövzusunda müzakirələr aparıldı. Öz çıxışımda mən beynəlxalq qaydalara əməl olunmaması, ikili standartların və müəyyən dövlətlərin maraqlarının üstünlük təşkil etməsi nəticəsində dünyanın daha parçalanmış və təhlükəli hala gəldiyini qeyd etdim. Parlament diplomatiyasının artan əhəmiyyətindən danışdım, sülh və qarşılıqlı anlaşma yaradılmasında parlamentlərin rolu barədə fikirlərimi bölüşdüm. Bildirdim ki, xalqın nümayəndələri olaraq parlamentlər etimad, təhlükəsizlik və sülh şəraitində dinc birgəyaşayış məsələlərinin həllinə mühüm töhfələr verə bilərlər.

Hörmətli deputatlar, bildiyiniz kimi, hazırda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə və Asiya Parlament Assambleyasına Azərbaycan Milli Məclisinin sədri rəhbərlik edir. Cenevrədə mənim sədrliyimlə bu iki təşkilatın irimiqyaslı tədbirləri keçirildi.

Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Üçüncü Konfransında üzv parlamentlər, habelə beynəlxalq təşkilatların 56 nümayəndə heyəti iştirak edirdi. Toplantıda söylədiyim giriş nitqində mən Qoşulmama Hərəkatına ölkəmizin sədrliyi dövründə Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin, Gənclər Təşkilatının və Qadınlar Platformasının yaradılması istiqamətində atılan addımların Hərəkatın institusional inkişafı üçün əhəmiyyətini qeyd etdim. Eyni zamanda, Hərəkatın Parlament Şəbəkəsinin fəaliyyətinin gücləndirilməsi və institusional potensialının artırılması, digər parlamentlərarası təşkilatlar ilə dialoq və əməkdaşlığın inkişafı üçün görülən işlər barədə məlumat verdim.

Konfransda "İqlim dəyişikliyi ilə mübarizədə parlament fəaliyyətinin canlandırılması" mövzusu ətrafında müzakirələr aparıldı.

Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi yanında beynəlxalq təşkilatlara müşahidəçi statusunun verilməsi haqqında qərarlar və tədbirin yekunlarına dair Cenevrə Bəyannaməsi qəbul edildi. Qeyd edim ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Parlamentlərarası İttifaq arasında Anlaşma Memorandumu da imzalandı.

Hörmətli həmkarlar, Asiya Parlament Assambleyasının koordinasiya iclası Parlamentlərarası İttifaq çərçivəsində Azərbaycanın sədrliyi ilə keçirilən Assambleyanın ilk koordinasiya iclası idi. Mən çıxışımda bildirdim ki, parlamentlərarası təşkilatların fəaliyyətinin genişlənməsinə yönələn qlobal tendensiyalar, parlamentlərin ikitərəfli və çoxtərəfli əməkdaşlığını tənzimləyən normativ hüquqi bazanın inkişafı, qlobal qərarların qəbulu proseslərində parlamentlərin daim artan iştirakı parlamentlərarası əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyini göstərir. Bu baxımdan Asiya Parlament Assambleyasının roluna diqqət cəlb etdim. Qeyd etdim ki, təşkilat Asiyada və dünyada əməkdaşlığın, sülh və sabitliyin möhkəmlənməsinə nail olmaq üçün cari məsələlərin və çağırışların həlli üçün ümumi səyləri birləşdirən parlament diplomatiyasının mühüm platformasıdır. Asiya Parlament Assambleyası ilə Parlamentlərarası İttifaqın ümumi məqsədlər naminə fəaliyyətini və səylərini əlaqələndirməyin zəruriliyini vurğuladım.

Hörmətli deputatlar, hər üç toplantıda bu ilin noyabrında Bakı şəhərində keçiriləcək COP29 konfransına hazırlıq işlərindən danışdım. Bildirdim ki, ölkəmizdə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" kimi qeyd

olunur. Bu gün Azərbaycanın çox ciddi "yaşıl enerji"yə keçid gündəliyi mövcuddur və ölkəmizdə bərpa olunan enerjinin həm istehsalına, həm də ixracına böyük investisiyalar qoyulur. İqlim dəyişikliyinə qarşı mübarizə tədbirlərini təşviq etmək və hədəflərimizə çatmaq üçün bütün tərəflərin iştirakının vacibliyini bildirdim.

Hörmətli həmkarlar, Cenevrədə bir sıra ikitərəfli görüşlər də keçirildi. ICESCO-nun baş direktoru, Serbiya, Əlcəzair, Qayana, Syerra-Leone, Qazaxıstan, Özbəkistan, Kot-Divuar parlamentlərinin sədrləri ilə görüşlərdə ikitərəfli və çoxtərəfli əməkdaşlığın müxtəlif aspektləri nəzərdən keçirildi. Qarşılıqlı maraq doğuran bir sıra məsələlər barəsində fikir mübadiləsi aparıldı.

Hörmətli həmkarlar, Parlamentlərarası İttifaqın təşəbbüsü və vasitəçiliyi ilə Azərbaycan və Ermənistan parlament sədrlərinin ikitərəfli görüşü də baş tutdu. Aparılmış müzakirələr zamanı Azərbaycan ilə Ermənistan arasında davam edən sülh danışıqları şəraitində iki ölkə parlamentinin sülh prosesinə hansı formada dəstək göstərə biləcəyi ilə bağlı məsələlər nəzərdən keçirildi.

Hörmətli deputatlar, hesab edirəm ki, Cenevrə şəhərinə işgüzar səfər uğurlu keçdi və bununla əlaqədar mən Milli Məclisin nümayəndə heyətinin hər bir üzvünə dərin minnətdarlığımı bildirirəm.

Hörmətli həmkarlar, bildiyiniz kimi, iki gündən sonra ölkəmizdə Azərbaycanlıların soyqırımı günü qeyd ediləcəkdir. Xalqımız erməni şovinistlərinin vəhşiliyinin qurbanı olmuş on minlərcə günahsız insanın xatirəsini daim ehtiramla yad edir.

Hörmətli həmkarlar, Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük

Vətən müharibəsində və antiterror tədbirlərində əldə etdiyi tarixi qələbələr, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsi son iki yüz ilə yaxın dövrdə məruz qaldığımız torpaq itkiləri, etnik təmizləmələr və soyqırımları silsiləsinə son qoymuşdur. Azərbaycan xalqına çoxsaylı milli fəlakətlər gətirən erməni şovinizminə və ekspansionizminə sarsıdıcı zərbə endirilmişdir. Bütün bunlar xalqımıza qarşı yeni soyqırımı cinayətlərinin baş verməməsinə ən yaxşı təminatdır.

Hörmətli həmkarlar, mənim sözlərim bu qədər. Gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.09 dəq.) |
| --- | --- |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin məsələlərinə keçirik. Bilirsiniz ki, bizim gündəliyimizdə bu gün 21 məsələ müzakirə ediləcək. Onu da qeyd edim ki, gündəliyin ilk 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə də bir-birinə bağlıdır.

Gündəliyin 1-ci məsələsi "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsi,

gündəliyin 2-ci məsələsi isə “Media haqqında” Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, layihələr ikinci oxunuşda müzakirəyə təqdim edilir.

Hörmətli həmkarlar, təklif edirəm, biz əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək, sonra isə birgə müzakirəsini aparaq. Səsvermə isə, həmişə olduğu kimi, ayrılıqda aparılacaq. Onu da qeyd edim ki, hər iki layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələlərə dair məlumat vermək üçün mən komitənin sədri, Milli Məclis sədrinin birinci müavini hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Gündəliyin həm 1-ci, həm də 2-ci məsələləri ilə bağlı birinci oxunuşda geniş məlumat verilmişdir. Məsələ burasındadır ki, bu qanun layihələri, həm Konstitusiya qanunları, həm də digər qanunlarda edilən əlavə və dəyişikliklər faktiki olaraq “Media haqqında” Qanunun icrası ilə bağlıdır. Yeganə, təbii ki, Konstitusiya qanununun səsverməsində həmkarlarımdan diqqətli olmağı xahiş edərdim. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, ikinci məsələyə Milli Məclisin daha 5 komitəsində baxılmışdır. Mən həmin komitələrin təmsilçilərinə söz verəcəyəm. Birinci sözü mən İctimai birliklər və dini qurumlar komitəsinin rəyini bilmək üçün hörmətli Fəzail İbrahimliyə verirəm. Fəzail müəllim, buyurun.

**F.İbrahimli,** *Milli Məclis sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri.*

Sahibə xanım, komitənin rəyi müsbətdir, səsə qoymaq olar.

**Sədrlik edən.** Çox sağ olun, Fəzail müəllim. Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin rəyini bildirmək üçün mən komitənin sədri hörmətli Ziyafət Əsgərova söz verirəm. Buyurun, Ziyafət müəllim.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlarım, komitənin rəyi müsbətdir və səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Mədəniyyət komitəsinin rəyini bildirmək üçün hörmətli Fazil Mustafaya söz verirəm. Fazil müəllim, buyurun.

**F.Mustafa,** *Milli Məclisin Mədəniyyət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Mədəniyyət komitəsinin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Əmək və sosial siyasət komitəsinin rəyini bildirmək üçün mən komitənin sədr müavini hörmətli Məlahət xanıma söz verirəm. Məlahət İbrahimqızı, buyurun.

**M.İbrahimqızı,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli Sahibə xanım. Bizim də komitədə baxılıbdır. Hər kəs yekdilliklə dəstəkləyib. Çox sağ olun.

**Sədrlik edən.** Məlahət xanım, çox sağ olun. Mən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli müəllimə söz verirəm. Əli Məsimli, buyurun.

**Ə.Məsimli,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli sədr. İqtisadi siyasət, sənaye və

sahibkarlıq komitəsinin bu layihəyə rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, ikinci oxunuşdur, əvvəlcə əsas kimi qəbul etməliyik. Ona görə də xahiş edirəm, bu qanun layihəsinin əsas kimi qəbul edilməsinə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Hörmətli həmkarlar, xahiş edirəm, yenidən səs verin. Biz 1-ci məsələnin əsas kimi qəbul olunmasına səs veririk. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə 2-ci məsələdəki qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
|---|---|
| Lehinə | 98 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, bu qanun layihəsi də əsas kimi qəbul edildi. İndi müzakirəyə başlayırıq. Yazılanlar var. Etibar Əliyev. Etibar müəllim, buyurun.

**E.Əliyev.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. "Media haqqında" Qanunda dəyişikliklər həddindən artıq vacib dəyişikliklərdir. 78-ci maddə üzrə təklif olunur ki, maddənin adında "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin. 78.1-ci, 78.3-cü maddələrdə, 78.4-cü maddənin birinci və ikinci cümlələrində isə təklif olunur ki, "teleradio verilişləri, təşkilatları" sözləri "televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin.

İndiyə qədər "kütləvi informasiya vasitələri" anlayışından istifadə olunurdu. Bu anlayış altında informasiyaları insanlar arasında geniş yayan struktur nəzərdə tutulurdu. Bunun bir məhdud tərəfini deyim. Belə yanaşma mədəniyyət sahəsinə aid olan kütləvi kommunikasiyalar komponentini, məsələn, kino, kitab nəşri və sairi bu anlayışdan kənarda saxlayırdı. İndiki şəraitdə "kütləvi informasiya vasitələri" anlayışı mövcud kommunikasiya işində yetərli sayıla bilməz. Semantik baxımdan da belədir.

Kütləvi informasiya vasitələri dedikdə bura televiziya və radio, qəzet, internetin media profilləri daxil edilirdi. "Media" anlayışı isə daha genişdir. "Media" sözü latın sözü "medium"dan gəlir və mənası "vasitə"dir. Özü

kommunikasiya daşıyıcısıdır. Lakin anlayışın xarakteristikası çoxşaxəlidir. Buna da diqqət yetirmək lazımdır. Dünyanın media tədqiqatları institutları bu sahədə böyük tədqiqatlar aparırlar. Düşünürəm ki, bizim universitetlərin də nəzdində belə institutların yaradılması vacibdir. Bizdə belə laboratoriyaların yaradılması günün tələbidir. Buna cəhdlər də var. Amma səmərəlilik artırılmalıdır.

Media bütün informasiya daşıyıcılarının və məlumatı auditoriyaya çatdıran vasitələrin məcmusudur. Reklam, təbliğat, peyk televiziyası, kabel televiziyası da mediadır. Bunlar həm kommunikasiya platformaları, həm də media vasitələridir. Məsələn, kabel televiziyaları kontent yaratmır. Çox vaxt məzmuna cavabdehlik daşımırlar. Onlar da cavabdehlik daşımalıdırlar. Bu qanundakı dəyişikliklərdən sonra onlar cavabdehlik daşıyacaqlar. Məqsəd məsuliyyət daşıyanların sayını artırmaqdır.

Kabel televiziyası ilə məşğul olan 20-yə yaxın şirkət var. Bəzi hallarda elə əhəmiyyətli məqamlar olur ki, kabel televiziyaları, peyk televiziyaları öz üzərilərinə məsuliyyət götürmək istəmir. Məsələn, Xocalı faciəsi günündə Azərbaycana dost olmayan hansısa ölkənin anti-Azərbaycan kanalında verilişini yayımlamaq marağa və məntiqə zidd olur. Bunun nəzərə alınması olduqca vacibdir. Bu məsələnin qaldırılması heç də söz və ifadə azadlığını məhdudlaşdırmaq demək deyil. Adlarını media ekspertləri qoyan bəziləri isə internet televiziyanın tənzimlənməsinin "televiziya və radio yayımçıları" anlayışı çərçivəsinə daxil edilməsini düzgün hesab etmirlər. Bu, yanlışdır. Əlbəttə ki, məsuliyyət bütün media anlayışına daxil olan subyektlər üçün labüddür. Təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**A.Mirzəzadə.** Çox sağ olun. Hörmətli xanım sədr, ilk növbədə Sizə, nümayəndə heyətimizə Cenevrədə keçirdiyiniz səmərəli fəaliyyətə görə təşəkkür edirəm. Beynəlxalq tədbirlərdə Azərbaycan həqiqətlərinin çatdırılması olduqca vacib bir məsələdir. Nəzərə alsaq ki, Azərbaycan əleyhinə beynəlxalq aləmdə anti-Azərbaycan kampaniyası dayanmaq bilmir. Bura, çox təəssüf ki, dünyanın təhlükəsizliyinə cavabdeh olan dövlətlər də qoşulur. Amma belə görüşlər, şübhəsiz ki, dünyanı Azərbaycanı daha yaxşı tanımağa, həqiqətlərimizi qəbul etməyə kömək edir. İnanıram ki, Siz bu görüşlərinizdə Azərbaycan həqiqətlərini həmişə parlaq faktlarla söyləyirsiniz. Sizinlə olan görüşlərdə mən bunun şahidi olmuşam. Bir daha Sizə təşəkkür edirəm. Çox şadam ki, Azərbaycan parlamenti Azərbaycanın dünya birliyində tanıdılmasında öz üzərinə düşən vəzifəni yerinə yetirir.

Mən təqdim edilən hər iki qanun layihəsini dəstəkləyirəm və düzəlişləri düzgün hesab edirəm. Bu məsələ ilə bağlı 2 məsələyə, icazənizlə, toxunmaq istəyirəm.

Birincisi, dünən məlumat yayıldı ki, ölkəmizin insan hüquqları üzrə müvəkkili hörmətli Səbinə xanım Əliyeva Xankəndi şəhərində olan erməni sakinlərlə görüşüb. Bunun özü göstərdi ki, Azərbaycan millətindən asılı olmayaraq öz vətəndaşlarına eyni cür yanaşır. Ermənilərin təbliğatının əksinə olaraq, Xankəndidə müəyyən sayda ermənilər qalmaqdadır. Onlar Azərbaycan dövlətinə inanır, Azərbaycan vətəndaşlığını qəbul etməyə və qanunlarımız əsasında yaşamağa çalışırlar. Eyni zamanda, xanım ombudsman həssas təbəqə üçün yaradılmış şəraitlə tanış oldu.

Qoy dünya gözünü açıb Azərbaycana yaxşı baxsın. Qoy

dünya Azərbaycanı daha yaxşı tanısın. İlk növbədə mən bunu Fransaya, Fransanın prezidenti Emanuel Makrona yönləndirmək istəyirəm. Yada salım ki, Vətən müharibəsinə qədər və Vətən müharibəsi dövründə Ermənistanın insan hüquqları üzrə müvəkkili insan hüquqları müvəkkili kimi deyil, insan hüquqlarını pozmaq komissarı kimi hərəkət edirdi. Azərbaycan əleyhinə çıxışlar edirdi, Azərbaycan əhalisini aşağılayırdı, Ermənistanın işğalçı siyasətini dəstəkləyirdi. Amma ondan fərqli olaraq Azərbaycanın ombudsmanı, göründüyü kimi, hər bir vətəndaşımızın taleyi ilə yaxından maraqlanır.

Dünən, ya srağagün Parisdə çıxan "Le Figaro" qəzetində Fransa prezidenti Makronla bağlı maraqlı bir ifadə işlədilmişdi: "Fransa Ermənistanı bacardığı qədər müdafiə edir, amma nədənsə bu siyasətin nəticəsi yoxdur". Əlbəttə, bu siyasətin nəticəsi olmayacaq. Çünki bu, ədalətsizliyə söykənir, bu, beynəlxalq hüququ tapdalamağa söykənir. Bu, kiçik, amma öz suverenliyini qorumaq istəyən Azərbaycanın nüfuzunu ləkələməyə, onu dünya xəritəsində aşağılamağa söykənib. Bu, heç bir zaman qələbə qazana bilməz.

Azərbaycan öz suveren hüquqlarını bilir. Azərbaycan dünya birliyində nüfuza malikdir və bu il keçiriləcək COP29 konfransı bir daha göstərdi ki, Makronların apardığı siyasətə baxmayaraq, Azərbaycan müstəqilliyini qoruyacaq və dünyada öz nüfuzunu artırmaqda davam edəcək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur, biz qanun layihələrinin səsvermə proseduruna keçirik. Maddələr üzrə səs verəcəyik. Xatırladım ki, 1-ci məsələdə – "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman)

haqqında” və “Normativ hüquqi aktlar haqqında” Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsində iki maddə var. Xahiş edirəm, 1-ci maddəyə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.21 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.

İndi isə 2-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.22 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.22 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---:|
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

İndi isə biz 2-ci məsələyə keçirik. “Media haqqında” Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsində 18 maddə var. Mən onları altı-altı səsə qoyacağam. Xahiş edirəm, birinci 6 maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---:|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə ikinci 6 maddəyə səs verək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---:|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Bunlar da qəbul edildi, çox sağ olun. İndi isə son 6 maddəyə də münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qəbul olundu.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələlərə keçirik və qeyd edim ki, növbəti 7 məsələ üçüncü oxunuşda olan qanun layihələridir.

3-cü məsələ Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən Sizdən xahiş edəcəyəm, buyurun.

**Ə.Hüseynli.** Hörmətli sədr, hörmətli həmkarlar, uşaq hüquqlarının daha səmərəli müdafiəsinə yönəlmiş bu

qanun layihəsi ilə bağlı ikinci oxunuşda heç bir təklif daxil olmamışdır. Üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Hörmətli həmkarlar, bu qanun layihəsinə iki komitədə də baxılıb. Birinci komitə, Hicran xanım, sizin komitənizdir. Xahiş edirəm, komitənizin rəyini bildirin.

**H.Hüseynova**, *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, bizim də komitəmizdə baxılıb. Heç bir rəy, təklif daxil olmayıb. Xahiş edirik, səsə qoyulsun. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Layihəyə İnsan hüquqları komitəsində də baxılıb və komitənin rəyini bildirmək üçün komitənin üzvü hörmətli Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**B.Məhərrəmov**, *Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü.*

Hörmətli sədr, komitə lehinədir, səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Komitələrin rəyini bildik. İndi isə mən qanun layihəsini səsə qoyuram. Sualı, sözü olan yoxdur. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.25 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

4-cü məsələyə keçirik. "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında qanun layihəsi üçüncü oxunuşda təqdim olunur. Layihəyə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun.

**S.Seyidov**, *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. İkinci oxunuşdan sonra qanun layihəsi ilə bağlı komitəyə hər hansı bir dəyişiklik və ya təklif daxil olmamışdır. Ona görə, xahiş edirəm, layihəyə üçüncü oxunuşda münasibətinizi bildirəsiniz. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.26 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

5-ci məsələyə keçirik, hörmətli həmkarlar. Bu məsələ "Su təchizatı və tullantı suları haqqında" Qanunda

dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun.

**S.Qurbanov**, *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Layihə üçüncü oxunuşa tam hazırdır, sənəddə heç bir dəyişiklik edilməyib. Deputatlarımızı qanun layihəsini yenidən dəstəkləməyə dəvət edirəm.

**Sədrlik edən.** Çox sağ olun. İndi isə mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi. Çox sağ olun.

6-cı məsələyə keçirik. Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb və komitənin üzvü Bəhruz müəllim məlumat verəcək. Buyurun.

**B.Məhərrəmov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli sədr, hörmətli həmkarlar, ikinci oxunuşdan

sonra heç bir əlavə təklif və tövsiyə daxil olmadığı üçün olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.28 dəq.) |
| --- | --- |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ 7-ci məsələdir. Bu, Cinayət-Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Əli müəllim, mən yenə də Sizdən xahiş edirəm, məlumat verin.

**Ə.Hüseynli**. Sağ olun, hörmətli sədr. Hörmətli həmkarlar, üzərinə həbs qoyulmuş əmlakın qaytarılması qaydasını tənzimləyən bu layihə ilə bağlı heç bir təklif daxil olmamışdır. Üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.29 dəq.) |
| --- | --- |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |

| | |
|---|---|
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələ "Məhkəmələr və hakimlər haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Yenə də mən, Əli müəllim, sözü Sizə verirəm, sizin komitənizdə baxılıb. Buyurun.

**Ə.Hüseynli**. Hörmətli sədr, hörmətli həmkarlar, bu layihə barədə geniş məlumat vermişdim və geniş fikir mübadiləsi aparılmışdır. Mahiyyəti məhkəmə hakimiyyəti ilə ədliyyə orqanları arasında səlahiyyətlərin dəqiqləşdirilməsi ilə bağlıdır və prinsip etibarı ilə də parlament bu layihəni dəstəkləyir. Üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.30 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti iki məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Bu qanun layihələri "Fövqəladə vəziyyət haqqında" Qanunda dəyişiklik edilməsi barədə bizim

təqribən bir il öncə qəbul etdiyimiz qanunun icrası ilə əlaqədar hazırlanmışdır. Gündəliyin 9-cu məsələsi İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, gündəliyin 10-cu məsələsi isə "Fövqəladə vəziyyət haqqında" Qanunda dəyişiklik edilməsi barədə 2023-cü il 24 fevral tarixli Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihələridir.

Hörmətli həmkarlar, fevralın 23-də keçirilən iclasımızda mən bildirmişdim ki, 10-cu məsələdəki qanun layihəsi bir oxunuşda qəbul edilməlidir və biz onun müzakirəsini 9-cu məsələdəki qanun layihəsinin üçüncü oxunuşu ilə eyni günə saxladıq. Beləliklə, bu iki qanun layihəsi bu gün birlikdə müzakirəyə təqdim edilir.

Hörmətli həmkarlar, layihələrə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Mən indi komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Kamal müəllim, xahiş edirəm, Siz qanun layihələri barədə bizə ümumi bir məlumat verəsiniz. Buyurun.

**K.Cəfərov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Qeyd etdiyiniz kimi, biz birinci və ikinci oxunuşlarda qanun layihələrini geniş müzakirə etmişik və layihələrdə hər hansı bir dəyişiklik olmadığından, olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Kamal müəllim. Hörmətli həmkarlar, 10-cu məsələyə daha 5 komitədə baxılıb. İndi isə mən həmin komitələrin təmsilçilərinə üz tuturam. Birinci komitə İctimai birliklər və dini qurumlar komitəsidir və mən hörmətli Fəzail müəllimə söz verirəm. Fəzail İbrahimli, buyurun.

**F.İbrahimli**. Komitənin rəyi müsbətdir, səsə qoymaq olar.

**Sədrlik edən.** Çox sağ olun. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində də baxılıb. Ziyafət müəllim, xahiş edirəm, Siz də rəy bildirin.

**Z.Əsgərov**. Çox sağ olun, hörmətli xanım sədr. Bizim də komitənin rəyi müsbətdir və səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində də baxılıb. Hörmətli Sadiq müəllim, buyurun.

**S.Qurbanov**. Komitənin rəyi müsbətdir, olduğu kimi səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Aqrar siyasət komitəsinin rəyini bildirmək üçün komitənin üzvü hörmətli Azər Badamova söz verirəm. Azər müəllim, buyurun.

**A.Badamov**, *Milli Məclisin Aqrar siyasət komitəsinin üzvü.*

Hörmətli Sahibə xanım, komitənin rəyi müsbətdir, səsə qoymağınızı xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. İndi isə Zahid Oruca söz verirəm. Zahid müəllim, xahiş edirəm, İnsan hüquqları komitəsinin rəyini bildirin. Buyurun.

**Z.Oruc**, *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli sədr. Komitə layihənin lehinədir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, çıxış etmək istəyənlər var. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, mən də Sizin səfərinizlə bağlı bir-iki

söz demək istəyirəm. Baxmayaraq ki, səfəriniz bayram müddətində baş tutmuşdu, amma Siz bütün müddət ərzində, – biz televiziyadan da izlədik, – geniş şəkildə iş apardınız. Ayın 21-dən 27-nə qədər, demək olar ki, dünyanın bir çox ölkələrinin parlament sədrləri ilə, ayrı-ayrı qurumlarla, ayrı-ayrı təşkilatlarla görüşlər, konfranslar keçirilib. Həqiqətən də, Azərbaycanla bağlı, Azərbaycan həqiqətləri ilə bağlı məsələlər dünya ictimaiyyətinin, dünyanın diqqətinə çatdırıldı və bir daha sübut olundu ki, dünya birqütblü deyil, dünyanın müxtəlif qütbləri var və bu qütblərdə də müxtəlif xalqlar yaşayır, dövlətlər fəaliyyət göstərir. Biz tək bir istiqamətlə deyil, bütün istiqamətlərlə əməkdaşlıq edirik, əməkdaşlıq qururuq.

Qanun layihəsi ilə bağlı bir məsələni qeyd etmək istərdim. Bizim bir il bundan qabaq qəbul etdiyimiz dəyişikliklərin, yəni sosial sahədə olan müəyyən hallarda fövqəladə vəziyyətlərin tətbiqi ilə bağlı olan məsələlərin indi digər qanunlarda tətbiq olunması, doğrudan da, aktual və çox vacib olan məsələlərdir. Son hadisələr göstərir ki, dünyada təhlükəsizik məsələsi, demək olar, bir nömrəli məsələyə çevrilib.

Mən xatırlayıram, hələ 11 sentyabr hadisələrində Amerika Birləşmiş Ştatlarının prezidenti Corc Buşun bir çıxışı var idi. Qeyd etdi ki, Amerika öz fundamental dəyərlərindən geri çəkilərək, insan hüquqları, demokratiya, söz və mətbuat azadlıqlarından geri çəkilərək birinci yerə vətəndaşın təhlükəsizlik məsələlərini çıxarır. Doğrudan da, əgər dövlət vətəndaşın təhlükəsizlik məsələlərini təmin edə bilmirsə, onu hansı digər hüquqlarla təmin edə bilər? Biz şahidi olduq ki, möhtərəm Prezidentimizin rəhbərliyi altında istər Vətən müharibəsi dövründə, istər antiterror

əməliyyatları dövründə, istərsə də Azərbaycanın ərazi bütövlüyünün təmin olunması dövründə həm Ermənistan, həm onun havadarları, həm də Azərbaycanı gözü götürməyən dövlətlər tərəfindən Azərbaycan ərazisində sosial xarakterli fövqəladə vəziyyət yaratmağa cəhd göstərilsə də, nə qədər terror əməliyyatı həyata keçirmək istəsələr də, Azərbaycan hüquq mühafizə orqanları Prezidentimizin rəhbərliyi altında buna imkan vermədi. Sonrakı mərhələlərdə şahidi olduq ki, Azərbaycanı bu və ya digər şəkildə müxtəlif yanğınlarla imtahana çəkməyə çalışdılar. Bu prosesdə də fövqəladə halların tətbiqi nəticəsində Azərbaycan bu məsələləri də aradan qaldırdı, bəzi qüvvələrin süni şəkildə Azərbaycanda hər hansı bir terror aktını həyata keçirməsinə imkan vermədi.

Bu, bir daha onun göstəricisidir ki, bu gün dünyanın bütün mötəbər tədbirləri, beynəlxalq tədbirlər məhz Azərbaycanda keçirilir. COP29 kimi bir tədbirin Azərbaycanda keçirilməsi Azərbaycanda olan ictimai-siyasi sabitliyin, Azərbaycanda olan vəziyyətin, Azərbaycanda olan inkişafın, Azərbaycanda olan demokratiyanın, söz, mətbuat azadlığının bir nümunəsidir. Əfsus ki, bunu gözü götürməyən qüvvələr çoxdur. Rusiyada baş verən hadisədən sonra həm xaricdə oturan blogerlər, həm Azərbaycanda "sapı özümüzdən olan baltalar", həm də bəzi siyasi partiya rəhbərləri və qeyri-hökumət təşkilatlarının nümayəndələri cəhdlə çalışırlar ki, bu məsələlər kaş Azərbaycanda olardı. Yəni bunlar Azərbaycan xalqını, vətəndaşını düşünmürlər, bunlar öz maraqlarını düşünürlər. Bunlar özlərinin iyrənc hisslərini düşünürlər ki, Azərbaycanda tətbiq olunsun. Lakin Azərbaycan dövləti güclü dövlətdir və bunun qarşısı alınmalıdır.

Bir haşiyə də çıxım. Terrorun əsas mənbəyi maliyyədir,

çirkli pullardır, qeyri-qanuni yollarla əldə olunan pullardır. Terrorun maliyyələşməsi ilə bağlı bizim qanunvericilikdə, Cinayət Məcəlləsində ciddi müddəalar var. Mən hesab edirəm ki, bunu daha da kəskinləşdirməliyik. İstər mətbuat nümayəndəsi olsun, istər siyasi partiya olsun, istər qeyri-hökumət təşkilatı olsun, istərsə də hərbi şəxslər olsun, əgər qeyri-qanuni yolla mənbəyi məlum olmayan vəsait alırsa, bunun qarşısı dərhal alınmalıdır, mənbə müəyyən olunmalıdır, çünki o mənbə Azərbaycan xalqının təhlükəsizliyinə qarşı istifadə olunacaqdır. Heç kəs heç kəsə havadan pul vermir. Verdiyi pulun da arxasında sifarişi var. Ona görə də hesab edirəm ki, bu məsələlərin qanunvericiliyimizdə tətbiq olunması vacib amildir. Mən bütün həmkarlarımı buna səs verməyə çağırıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. İndi isə hörmətli həmkarlar, mən qanun layihələrini bir-bir səsə qoyacağam. Xahiş edirəm, 9-cu məsələyə, yəni İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 10-cu məsələyə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
| --- | --- |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 3 məsələsi ikinci oxunuşda olan qanun layihələridir. Onu da qeyd edim ki, növbəti iki məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındır.

11-ci məsələ "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Qanunda, gündəliyin 12-ci məsələsi isə "Bələdiyyələrin statusu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Hər iki qanun layihəsinə Regional məsələlər komitəsində baxılmışdır. Odur ki, mən təklif edirəm, komitənin sədri hörmətli Siyavuş Novruzov qanun layihələrinə dair ümumi məlumat versin, müzakirəni də, həmişə olduğu kimi, bir yerdə, səsverməni isə ayrılıqda aparaq. Siyavuş müəllim, buyurun.

**S.Novruzov,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, hər iki qanun layihəsi, qeyd olunduğu kimi, cənab Prezidentin bir məktubu ilə parlamentə daxil olub. Bu bizim deputatların da arzu və istəyi idi. Belə ki, deputatlarımız bələdiyyələrin sayının azaldılması ilə bağlı həm mətbuatda, həm də Milli Məclisdə mütəmadi olaraq çıxışlar etmişlər. Bu qanun layihəsinin də əsas məğzi

ondan ibarətdir ki, əhalisinin sayı 3 min nəfərə qədər və yaxud da ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələrin yaradılmasına yol verilir. Bu da xeyli sayda bələdiyyələrin – təxminən üçdə ikisinin birləşməsini təmin edəcəkdir. Yəni bələdiyyələrin sayı azaldılacaqdır.

Xatırlayırsınızsa, bu yaxınlarda işğaldan azad olunmuş ərazilərimizin baş planı hazırlanıb, təqdim olunub. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində 900-dən yuxarı kənd var. Bu 900 kənddən ümumi olaraq 300-ə yaxın kənd tikilib istifadəyə veriləcək. O 900 kəndin sakinləri həmin 300 kənddə məskunlaşsın ki, oradakı infrastruktur, qaz, işıq, digər təminatlar tam şəkildə öz həllini tapsın.

Birinci oxunuşda deputat həmkarlarım tərəfindən bu məsələ dəstəklənib, layihə ilə bağlı heç bir təklif daxil olmayıb. Deputatların bilavasitə qanun layihəsi ilə bağlı olmayan, digər məsələlərlə bağlı çıxışları olub, işçi qaydada aydınlıq gətirilib. Ona görə də səs verməyinizi, qanun layihəsini qəbul etməyinizi rica edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Hörmətli həmkarlar, biz qanun layihələrini ikinci oxunuşda əsas kimi qəbul etməliyik. Ona görə də xahiş edirəm, 11-ci məsələnin əsas kimi qəbul olunmasına münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---:|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə mən 12-ci məsələni əsas kimi səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də əsas kimi qəbul edildi.

Müzakirələrdə çıxış etmək istəyənlər var. Fazil Mustafa. Fazil müəllim, buyurun.

**F.Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli Siyavuş müəllim qanun layihəsi ilə bağlı fikrini bildirərkən göstərdi ki, bütün deputatların istək və arzularına uyğun olaraq belə bir addım atılıb. Amma mən bu məsələ ilə bağlı istək və arzularımızın bir az fərqli olduğunu göstərməyə çalışacağam.

Birinci növbədə bir neçə ritorik sualın, məncə, aydınlaşmasına ehtiyac var. Birinci oxunuşda mən olmadığıma görə bu məsələləri çalışacağam, elə maddələr üzrə də uzlaşdıram.

Hansı bələdiyyənin sosial müəssisəsi var? Bələdiyyənin möhürü olan hansı sənəd əsasında müvafiq mülkiyyət sənədi verilir? Hansı bələdiyyənin idman kompleksi və ya idman komandası var: futbol, voleybol, basketbol, həndbol, hansı olursa-olsun, xarici ölkələrdə olduğu kimi? Hansı bələdiyyənin peşə məktəbi var, bir universiteti var?

Əslində, bu sualların heç birinin cavabı yoxdur. Heç bir bələdiyyənin belə bir infrastrukturu mövcud deyil. 24 ildir Azərbaycanda bələdiyyə var, biz hələ bu elementar məsələləri həll etmək imkanına sahib olmamışıq. Çünki indi qanunda da biz “bələdiyyələrin yaratdığı məktəblərdə” deyə nəzərdə tutmuşuq, amma heç bir bələdiyyənin konkret məktəbi yoxdur. Çünki bələdiyyənin pulu yoxdur.

Məncə, ona görə biz qanunvericiliyə əhali meyarı ilə deyil, bələdiyyənin büdcəsində olan vəsait meyarı ilə yanaşmalıyıq. Yəni əhali sayı prinsipi ilə bələdiyyəni ayırsan da, birləşdirsən də, o, fəaliyyət göstərmə imkanına sahib olmayacaq. Yaxşı olar, biz bu meyarı fərqli bir formada dəyişək və stimullaşdıraq ki, bələdiyyə öz büdcəsinə vəsait toplaya bilsin, müxtəlif çalışmalardan, layihələrdən, hansı isə sosial təşəbbüslərdən bunu əldə edə bilsin. İndiki şərtlərdə bu çətin olacaq, amma bunu etməyə məcburuq. Çünki özünüidarəetməni biz əvvəl-axır hansı isə formada canlandırmalıyıq. Məsələn, büdcəsində 1 milyon manatdan az vəsait olan şəhər bələdiyyələrinin, 500 min manatdan az vəsait, – bu vəsait fərqli də ola bilər, nisbidir, – olan kənd, rayon bələdiyyələrinin, ümumiyyətlə, fəaliyyət göstərməsi məqsədəuyğun sayılmasın. Axı büdcəsində vəsait yoxdursa, bələdiyyə kənddə hansı layihəni həyata keçirə biləcək?

Baxın, indi bizdə uşaq cinayətlərinin sayı artmaqdadır. Səbəbi nədir? Səbəbi odur ki, icra hakimiyyətləri nəzdində olan himayə və qəyyumluq qurumları ictimai əsaslarla fəaliyyət göstərir və təsir imkanları elə də böyük deyil. Halbuki bu uşaqların tərbiyəsi və digər profilaktik tədbirlər vəsait tələb edən məsələlərdir.

Burada uşaqların məktəbdən yayınması da var. İstəsən də, istəməsən də, 9-14-17 yaşlı uşaqların əksəriyyəti

hazırlığa getdiyinə görə məktəbə getmirlər, məktəb mühitindən aralıdırlar. Ailənin uşaq üzərində nəzarəti məhduddur və digər komponentlər də var: musiqi, yaxud da mədəniyyət infrastrukturu əlçatan deyil. Elə yerlər var ki, əksəriyyətində bu infrastruktur yoxdur və ya idman infrastrukturu əlçatan deyil. Uşaqların pulsuz getməsi üçün üzgüçülük hovuzları yoxdur. Belə bir vəziyyətdə bu uşaq kriminala yem olacaq, cinayətə qarışacaq. Biz buna yol verməmək üçün digər alternativləri mütləq inkişaf etdirməliyik. Bu alternativlərin də əsas təşəbbüskarı bələdiyyələr olmalıdır. Necə ki, xarici ölkələrdə, qardaş Türkiyədə bütün bu qayğıları, bu prosesləri bələdiyyələr tənzimləyir. Çünki bələdiyyənin kifayət qədər böyük bir vəsaiti olur, sosial təsisatları olur, sosial reabilitasiya mərkəzləri olur. Bələdiyyələr mərkəzləşmiş dövlət orqanlarının əli çatmadığı konkret ərazilərdə yaşayan insanların yerli səviyyəli ən elementar problemlərini həll etməyi bacarır. O baxımdan mən də hesab edirəm ki, əhali sayı üzrə artıraq, azaldaq, 3000 nəfər olsun, 1000 təsərrüfatdan az olsun, ona da imkan verək, yaransın. Amma nəticə olaraq bələdiyyə inkişaf edəcəkmi?

Hesab edirəm ki, bu prinsiplə bələdiyyənin inkişafını təmin edə bilməyəcəyik. O baxımdan da biz bələdiyyənin gəlir vasitələrini, yəni onun mülkiyyət sənədinin, yaxud da imza atdığı, möhürünü qoyduğu sənədlərin mülkiyyət sənədi kimi tanınması məsələsini həll etməliyik ki, heç olmasa, müəyyən vəsait qazanıb digər sahələrdə yerli özünüidarənin təməl funksiyalarına aid məsələləri həll etmək imkanına sahib olsun. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun, Qüdrət müəllim.

**Q.Həsənquliyev**. Hörmətli sədr, hörmətli həmkarlar, media nümayəndələri. Mən ilk növbədə istərdim ki, sədrimizə və onu müşayiət edən nümayəndə heyətinin üzvlərinə öz minnətdarlığımı bildirim. Bayram günləri ailələrini tərk edərək uğurlu bir səfərdə oldular, xalqımız üçün faydalı olan çoxlu görüşlər keçirdilər. Buna görə, Sahibə xanım, Sizə bir daha öz minnətdarlığımı bildirirəm və növbəti uğurlu səfərlər və uğurlar arzulayıram.

Hörmətli həmkarlar, müzakirə olunan məsələ ilə bağlı bir qeydimi bildirmək istəyirəm. İndi biz bələdiyyələri birləşdiririk. Hörmətli Siyavuş müəllim də qeyd etdi ki, bələdiyyələrin sayı üçdə ikiyə qədər azalacaq. “Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında” Qanunun 2-ci maddəsinə görə, Azərbaycanda yaşayış məntəqələri 3 kateqoriyadan ibarətdir. Bunlar kənd, qəsəbə və şəhərlərdir. Yenə həmin 2-ci maddəyə görə, bütün yaşayış məntəqələrində dövlət hakimiyyət orqanları formalaşdırılır. Əgər bir yaşayış məntəqəsində dövlət hakimiyyət orqanı varsa, orada yerli özünüidarə orqanı da olmalıdır. Ona görə də mən burada yalnız 3 min nəfərdən çox əhalisi olan yaşayış məntəqələrində bələdiyyələrin yaradılmasını doğru saymıram və hesab edirəm ki, hər bir yaşayış məntəqəsində yerli özünüidarə orqanı olmalıdır. Bu o demək deyil ki, yerli özünüidarə orqanı varsa, hökmən onlar maaş almalıdırlar. Bunlar ictimai əsaslarla da işləyə bilərlər və dünyanın bir çox yerlərində bu təcrübə mövcuddur.

Hörmətli sədr, yeri gəlmişkən, bizim partiyadan da çoxlu bələdiyyə üzvləri var. Mən onlarla da söhbət etmişəm. Məsələn, bir şəhər bələdiyyəsinin üzvündən soruşuram, mənə deyir, “biz ayda təqribən 70 min manata qədər pul yığırıq, onun da 40 min manatı bələdiyyə

üzvlərinin əmək haqlarına gedir". Bu nəyə oxşayır? Bu ona oxşayır ki, elə bil, insanları yükləmişik, əhalinin bir hissəsini bələdiyyə qulluqçusu kimi, bələdiyyə üzvləri kimi saxlasınlar.

Burada hörmətli Fazil müəllim qeyd etdi ki, bələdiyyələrin statusu yoxdur. O vaxt bələdiyyələr yaradılanda bizə dedilər ki, təzə yaradılır, zamanla statusları genişləndiriləcək. Amma zaman keçdi, biz əksini gördük, onlara pullar qazandıra biləcək səlahiyyətləri də əllərindən alındı. Həm də təkcə onların səlahiyyətləri əllərindən alınmadı, yerli icra hakimiyyəti orqanlarının da səlahiyyətləri əllərindən alındı.

Azərbaycanda dövlət idarəetməsi həddindən artıq mərkəzləşib. Mərkəzi icra hakimiyyəti orqanları bütün səlahiyyətləri öz əllərində cəmləyiblər. Biz yerli özünüidarəni inkişaf elətdirməsək, bir çox problemləri həll edə bilməyəcəyik. Həm də, baxın, biz burada qanunu dəyişirik. "Bələdiyyələrin statusu haqqında" Qanunun 12-ci maddəsinin 2-ci hissəsini sizin üçün oxuyuram: "Müəyyən ərazidə əhalinin sayına görə vətəndaşlar yerli özünüidarəni həyata keçirmək hüququndan məhrum edilə bilməzlər". İmperativ normadır. Yəni burada biz belə bir norma ola-ola, indi saya görə bələdiyyələrin sayını necə azalda bilərik? Ona görə də mən hesab edirəm ki, bu məsələ ciddi şəkildə araşdırılmalıdır. Bələdiyyələrin həm səlahiyyəti artırılmalıdır, həm də vacib deyil ki, bütün bələdiyyələr yalnız maaşla işləsinlər.

Bir dəfə hörmətli Səməd müəllim bir məsələni xatırlatdı. Dedi ki, xarici qonaqları bizim Aran rayonlarının birində qaçqınlarla görüşməyə aparıblar. Yağışlı hava imiş, hər tərəf palçıq və qonaqlar orada söyləyiblər ki, biz başa düşmədik, bu insanlar burada ağacın altında

oturublar, ayaqlarında da rezin çəkmələr, domino oynayırlar, nərd oynayırlar, amma uşaqlar palçığın içində gedib-gəlirlər. Ola bilsin ki, dövlətin heç pulu yoxdur. Bəs insanlar niyə təşkil olunmur və özləri könüllü olaraq bu yolları düzəltmirlər, daş döşəmirlər, işləmirlər? Vaxtı ilə sürgünə göndərilmiş almanlar, başqa xalqların nümayəndələri səhralarda özləri üçün gözəl yollar salıblar, suyun axması üçün arxlar düzəldiblər. Bilirsiniz, ona görə bu yerli özünüidarə lazımdır ki, insanları təşkil etsinlər, bir çox məsələləri dövlət iştirakı olmadan həll etsinlər, insanlar öz həyat şəraitlərini düzəltsinlər və normal yaşayışlarını qursunlar.

Həmin o şəhər bələdiyyəsinin üzvündən soruşuram, "bəs nə ilə məşğulsunuz?" Deyir: "Bəzi ara yollara asfalt vururuq". Deyirəm, mərkəzi yola asfalt vuran adam elə ara yola da vura bilər də. Bundan ötrü o boyda bələdiyyə saxlayıb, camaatdan da pul yığıb bunlara ayda da 40 min manat – yığılan pulun yarıdan çoxunu maaş vermək lazımdır?

Sonda, hörmətli sədr, mən bir məsələyə də toxunmaq istəyirəm. Mən çox üzrlü səbəbdən bir az iclasa yubandım. Dünən Dövlət Təhlükəsizliyi Xidmətinin 105 illiyi qeyd olunub, mən onları təbrik edirəm. Doğrudan da, ölkədə dövlətin təhlükəsizliyi, sabitlik və əmin-amanlıq təmin olunub. Hər birimiz buna görə onlara minnətdar olmalıyıq. Bu sabitlik həm inkişaf, həm də islahatların aparılması üçün imkanlar yaradır. Amma mən çox istəyərdim ki, Milli Məclisin xüsusi bir iclası çağırılsın, xüsusi ilə də Rusiyadakı son terror aktından sonra. Azərbaycanda bu məsələ ilə bağlı görülən tədbirlər haqqında Milli Məclisə məlumat versinlər. Milli Məclis təkcə qanunverici orqan deyil, həm də təmsilçilik funksiyasını yerinə yetirən bir

kollegial orqandır. Bizim İnsan hüquqları komitəsinin, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin və Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin birgə iclasında da belə bir dinləmə keçirmək olar. Həmçinin plenar iclası da qapalı keçirmək olar.

Məsələn, Azərbaycanda, hörmətli sədr, çox təəssüf ki, hələ də vertolyotlarla sanitar xidmət təşkil olunmayıb. Magistral yollarda bəzən avtoqəzalar olur. Qəzada xəsarət alanları avtomobillə gətirincə, xeyli vaxt itir. O gün cənab Prezident tərəfindən 100-dən artıq yeni təcili tibbi xidmət maşını ayrılması göstərildi, hamımız böyük bir ruh yüksəkliyi ilə izlədik. Əlbəttə, bir-iki dənə də sanitar-tibbi vertolyotun da onların arasında olması bizi çox məmnun edərdi. Qeyd edim ki, xəstəxanaların heç birində – nə binaların damında, nə də həyətində sanitar vertolyotların enməsi üçün xüsusi meydançalar yaradılmayıb. Vətən müharibəsində biz gördük ki, yaralıları Badamdardakı vertolyot meydançasına daşıyırdılar, oradan da ikinci dəfə təcili tibbi yardım maşınları ilə xəstəxanalara çatdırırdılar.

Bakıda həddindən artıq sıxlıqdır. Rusiyadakı terrordan sonra fikirləşdim ki, görəsən, Allah uzaq etsin, bizdə belə bir terror olsa, adekvat tədbirlərə hazırıqmı? Halbuki oxşar terror aktları bizdə olub. 1994-cü ildə metropoliten partladıldı, orada 30-a yaxın insan öldü, sonra 1994-cü ilin martında və iyun ayında 13 nəfər öldü. 2009-cu ildə Dövlət Neft Akademiyasında terror oldu, 13 nəfər həyatını itirdi. Yəni belə hallara hazırlıqla bağlı xüsusi xidmət orqanlarının adekvat təlimləri keçirilirmi? Biz bilirik ki, Fövqəladə Hallar Nazirliyi tez-tez metroda, başqa yerlərdə belə təlimlər keçirir. Ona görə də Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti ilə bağlı belə müzakirələrin keçirilməsi ümumi işimizin xeyrinə olar.

Sonda mən hökuməti Bakıdakı neftayırma zavodunun şəhərin mərkəzindən çıxarılması barədə düşünməyə çağırıram. Orada bir texnogen qəza olsa, bütün şəhər ciddi ziyan görəcək, insanlarımız ciddi ziyan görəcək. Çox sağ olun, diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun, Siyavuş müəllim.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Burada bir neçə məsələ qaldırıldı. Düzdür, bu məsələlərin böyük əksəriyyəti qanuna aidiyyəti olmayan məsələlərdir. Qanunun mahiyyəti tamamilə başqa məsələlərdən ibarətdir.

Burada hörmətli Fazil müəllim başqa-başqa ölkələri misal gətirdi. Türkiyədə bələdiyyə sistemi tamam başqa, Azərbaycanda tamam başqa bir sistemdir. Bunları eyniləşdirmək olmaz. Türkiyədə bina tikmək üçün bələdiyyə icazə verir. Azərbaycanda binanı tikməyə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi icazə verir və onun 10 faizi dövlətə keçir. Türkiyədə isə bələdiyyəyə keçir və bələdiyyə onu satır, ondan futbol meydançası da düzəldir, voleybol meydançası da düzəldir, məktəb də tikir, bağça da. Orada hər bir şey bələdiyyənin statusuna aiddir. Bizdə bələdiyyənin statusu "Bələdiyyələrin statusu haqqında" Qanunun müddəalarında hamısı açıq şəkildə göstərilib.

Digər tərəfdən, məsələn, bələdiyyələrə verilən qəbiristanlıqların idarə olunması. Artıq qəbiristanlıqların 75 faizindən çoxu bələdiyyələrə təhvil verilib. Həmçinin digər sahələr də verilib.

Başqa bir tərəfdən baxanda, vətəndaşların 60 faizi bələdiyyə vergilərini ödəmir. İndi burada da çoxu oturub, soruşun, görün, axırıncı dəfə bələdiyyə torpağı ilə, mülkiyyəti ilə bağlı bələdiyyəyə nə qədər pul köçürüblər? Həmin vəsaitlər bələdiyyəyə köçürülməlidir. O vəsaiti də

bələdiyyə toplayıb digər işlər görür.

Üçüncü bir məsələ. Bələdiyyəyə dövlət diqqət göstərir, dotasiya və subvensiya verir. Dotasiyanı, subvensiyanı verəndə də bələdiyyəyə şərt qoyub deyir ki, sən məktəb tikə bilməzsən, çörək sexi tikə bilməzsən. Göstəriş verir ki, park salmalısan, yaxud da bir futbol meydançası və sair tikməlisən. Sonradan bu stadion və ya parkın saxlanılması özü xərc tələb edir. Bələdiyyəyə dövlət büdcəsindən ayrılan vəsaitlə bağlı müstəqillik verilmir axı.

Başqa bir məsələni götürək. Bir daha deyirəm, bələdiyyə torpaqlarının icarəsi və yaxud da bələdiyyə torpaqlarından istifadə məsələsi. Bu gün bələdiyyə torpaqlarının böyük hissəsi zəbt olunub, hörmətli Sahibə xanım. Bununla bağlı məhkəmələrdə nə qədər iş var. Ərazilərin boşaldılması, bələdiyyəyə dəymiş ziyanın ödənilməsi ilə bağlı məhkəmənin müvafiq qərarı olmalıdır. Bələdiyyə də bunun sayəsində işini qura bilsin. Qeyd edim ki, Azərbaycanda nümunəvi bələdiyyələr var, bələdiyyə məktəbi də var, bələdiyyə bağçası da var, bələdiyyə parkı da var, sosial obyektləri də var. Yəni bu o demək deyil ki, yoxdur. Amma elə yerlər var ki, 60 nəfərə yaxın adam yaşayır. Məsələn, Laçın rayonunda 147 kənd var, birində 60 adam, birində 30 adam, birində 40 adam yaşayır. Nə qədər buna oxşar kəndlərimiz var ki, mən misal göstərə bilərəm. Yəni 60 nəfərlik bələdiyyənin nə isə qura bilməsi qeyri-mümkündür. O baxımdan da qanunvericilik təşəbbüsü ilə bu məsələnin tənzimlənməsi təklif olunub. Burada ən əsası da odur ki, bu bələdiyyələrin birləşdirilməsi səlahiyyətləri Azərbaycan Respublikasının Milli Məclisinə verilir. Yəni həmin ərazidə yaşayan vətəndaşlar Milli Məclisə müraciət edir, Milli Məclis baxır, araşdırır, məqsədəmüvafiq hesab edirsə,

bunların birləşməsinə qərar verir. Bunun özü də bilavasitə aşkarlığın, demokratiyanın və inkişafın bir nümunəsidir.

Hörmətli Qüdrət müəllim bir məsələ qaldırdı. Hörmətli Qüdrət müəllim, Azərbaycanda 64 rayon, 12 respublika tabeli şəhər, 12 şəhər rayonu, 262 qəsəbə, 1721 kənd inzibati ərazi dairəsi, 4244 kənd var. Bunların hər birində bələdiyyələrin yaranması, fəaliyyəti, bunun maliyyə təminatını həyata keçirmək qeyri-mümkündür.

Azərbaycanda 1606 bələdiyyə var, 16 mindən çox insan bələdiyyə üzvü seçilir. Burada siyasi partiyalar da maraqlı olmalıdır. Çünki siyasi partiya bələdiyyə seçkilərində partiya şəklində iştirak etmək istəyirsə, onların üçdə birində namizəd irəli sürməlidir. Yəni ümumi bələdiyyələrin 30 faizində.

Bu gün ümumi bələdiyyə üzvlərinin sayını 16 min götürsək, partiyalar onların üçdə birində, yəni azı 6 minə yaxın bələdiyyə namizədi irəli sürməlidir. Partiyalar qeydiyyatdan keçərkən Ədliyyə Nazirliyinə təqdim etmək üçün lazım olan 5 min imzanın toplanmasında bunun nə qədər zəhmətli iş olduğunu gördük.

O baxımdan biz bu şəraiti yaradırıq ki, siyasi partiyaların yerli strukturları inkişaf eləsin, yerli strukturlar yerlərdə seçkilərdə iştirak etsin, öz namizədlərini irəli sürsün.

O ki qaldı statusun verilməsinə, burada məsələ başqa cürdür. Məsələn, şəhər statusu vermək üçün ən azı 15 min sakin lazımdır, yəni bələdiyyə ərazisində ən azı 15 min nəfər yaşamalıdır. Bundan başqa, əhalinin məşğuliyyəti ilə də müəyyənləşdirilir. Tutalım, kənddə ola bilər ki, 20 min adam yaşayır, amma təsərrüfatla məşğuldur. Qəsəbə statusu üçün gərək mütləq orada sənaye, kommunal təsərrüfat, ictimai iaşə obyektləri, tarixi-mədəni abidələr, kurort və sair olsun.

Ona görə də bunların hamısı ölçülüb-biçilib və xahiş edirəm, layihəni səsə qoyaq, qəbul edək. Burada qanun layihəsinin mahiyyəti tamam başqadır. Mahiyyət bələdiyyələrin birləşdirilməsi və bunun nəticəsində də növbəti bələdiyyə seçkilərinin keçirilməsidir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim.

Hörmətli həmkarlar, ikinci oxunuşdur, amma çıxışlar birinci oxunuşa aid olan məsələlərdir. Bəzi deputatlar keçən dəfə yox idi və ona görə də birinci oxunuşun məsələlərini burada müzakirəyə çıxardılar. Təklif var, səsə qoyaq. Hamı razıdırsa, mən layihəni səsə qoyuram.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** İkinci oxunuşdur və biz layihəni maddələr üzrə səsə qoymalıyıq. Hörmətli həmkarlar, 11-ci məsələdə 3 maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
| --- | --- |
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
| --- | --- |
| Lehinə | 87 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |

| | |
|---|---|
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 2-ci maddə də qəbul edildi.

3-cü maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz 12-ci məsələnin səsverməsinə keçirik. Bu qanun layihəsi 3 maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci və 3-cü maddələrə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə mən qanun layihəsinə bütövlükdə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 13-cü məsələsinə keçirik. Bu məsələ "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun

layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Mən Əli Məsimlidən məsələyə dair məlumat verməyi xahiş edəcəm. Əli müəllim, buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Qanunda nəzərdə tutulan dəyişikliklər barədə birinci oxunuş zamanı məlumat vermişdik. Xatırlatmaq üçün qeyd edim ki, təqdim olunan layihədə geostasionar orbitlərdəki peyk rabitəsi vasitələrinin özəlləşdirilməsi qadağan edilən dövlət əmlakı siyahısından çıxarılması təklif olunur.

Birinci oxunuşdan sonra bu layihə ilə əlaqədar bizim komitəyə heç bir təklif daxil olmayıb. Ona görə də layihənin olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən var. Razi Nurullayev. Buyurun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** İstəmirsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çıxış etmək istəyən yoxdur. Mən indi qanun layihəsinin səsverməsinə keçirəm. Maddələr üzrə səs verəcəyik. Bir maddədən ibarətdir. Həmin maddəyə, xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim 8 məsələmiz qalır. Bu məsələlərin hamısı da birinci oxunuşda olan qanun layihələridir. Odur ki, əvvəlcədən xahiş edirəm, birinci oxunuşun tələblərinə uyğun olaraq çıxış edəsiniz.

Növbəti 2 məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Mahiyyətcə də, başa

düşdüyünüz kimi, bir-birinə yaxındır.

Beləliklə, gündəliyin 14-cü məsələsi "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə, gündəliyin 15-ci məsələsi isə "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və digər 6 qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir.

Hörmətli həmkarlar, etiraz etmirsinizsə, əvvəlcə biz qanun layihələrinin təqdimatlarını dinləyək, sonra isə müzakirəyə və səsverməyə keçək. Hər iki layihəyə Elm və təhsil komitəsində baxılmışdır. Ona görə də mən məsələyə dair məlumat vermək üçün sözü komitənin sədri hörmətli Bəxtiyar Əliyevə verirəm. Bəxtiyar müəllim, buyurun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hamı razıdır 5 dəqiqəyə? 5 dəqiqəyə keçirik. Çıxış etmək istəyənlər də, görürəm, çoxdur. Buyurun, Bəxtiyar müəllim.

**B.Əliyev,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Artıq hörmətli xanım sədrin qeyd etdiyi kimi, hər iki məsələ Milli Məclisə cənab Prezidentin bir məktubu ilə daxil olub. Belə ki, "Təhsil haqqında" Qanunda təklif olunan dəyişiklik qəbul edilərsə, ona müvafiq olaraq 7 qanunda da uyğunlaşdırma xarakterli dəyişikliklər təsbit olunacaqdır. Ona görə də mən hər 2 qanun layihəsi haqqında qısaca bir məlumat vermək istərdim.

Azərbaycan vətəndaşının sosial müdafiəsinin gücləndirilməsi, həyat tərzinin yaxşılaşdırılması ölkədə həyata keçirilən islahatların mərkəzində dayanan əsas məsələlərdəndir. "Təhsil haqqında" Qanunda və digər qanunlarda təklif edilən dəyişikliklər də təhsilalanların sosial müdafiəsinin gücləndirilməsinə yönəlmişdir. Burada sosial

müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin təhsil aldıqları müddətdə onların təhsil xərclərinin dövlət tərəfindən ödənilməsi məsələsi diqqət mərkəzindədir.

Müzakirənizə təqdim edilən bu qanun layihəsinin hədəfi sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslər üçün ali təhsilin, orta ixtisas təhsilinin və peşə təhsilinin əlçatanlığının tam təmin edilməsi, həm də gəncləri daha yaxşı oxumağa, bilik və bacarıqlara, səriştələrə yiyələnməyə, yüksək peşəkar olmağa motivasiya etməkdir.

Təklif edilir ki, "Təhsil haqqında" Qanunun 14.8-1-ci maddəsi yeni məzmunda aşağıdakı redaksiyada verilsin. Onu da qeyd etməliyəm ki, bu məsələlərin hamısı cənab Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə artıq tətbiq edilməyə başlamışdır.

14.8-1-ci maddə: "Sosial müdafiəyə xüsusi ehtiyacı olan aşağıdakı şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir".

Burada 8 kateqoriya sadalanır:

"14.8-1.1. dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər;

14.8-1.2. dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan şəhid ailəsinin üzvləri;

14.8-1.3. dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslər;

14.8-1.4. dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsil müəssisələrində təhsil alan orqanizmin funksi-

yalarının 61–100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər və peşə təhsili müəssisələrində təhsil alan əlilliyi olan şəxslər;

14.8-1.5. dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqları;

14.8-1.6. dövlət ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məcburi köçkün statusu olan Azərbaycan Respublikasının vətəndaşları;

14.8-1.7. dövlət, bələdiyyə və özəl peşə təhsili müəssisəsində təhsil alan 20 yaşına çatmamış və orqanizmin funksiyalarının 81–100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş valideyni olan, aylıq gəliri yaşayış minimumundan aşağı olan şəxslər".

Nəhayət, sonuncu, "14.8-1.8. dövlət, bələdiyyə və özəl peşə təhsili müəssisələrində təhsil alan köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalma ehtimalı olmuş valideynlərin birindən olan uşaqlar".

Göründüyü kimi, əhatə dairəsi olduqca genişdir və bu, sosial qayğıya ehtiyacı olan, demək olar ki, bütün təhsilalanları əhatə edir.

Bu maddədən sonra təklif edilir ki, "Təhsil haqqında" Qanunda aşağıdakı redaksiyada 14.8-2-ci maddə əlavə edilsin. Həmin maddəyə görə: "Bu qanunun 14.8-1.3-cü, 14.8-1.5-ci və 14.8-1.6-cı (ali təhsil müəssisələrinə münasibətdə) maddələrində nəzərdə tutulmuş şəxslərin təhsil haqları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi təhsil xərcləri miqdarında ödənilir".

Bu maddənin əlavə edilməsinə böyük zərurət var idi. Çünki qanunvericiliyə görə hər il büdcə ili üzrə dövlət təhsil sisteminin maliyyələşdirilməsi məqsədi ilə hər bir təhsilalana – şagirdə, tələbəyə, doktoranta və sairəyə düşən təhsil xərclərinin miqdarı və maliyyə normativləri müəyyən edilməlidir. Bu səlahiyyət Azərbaycan Respublikasının Nazirlər Kabinetinə verilib. Nazirlər Kabineti hər il dövlət ali təhsil müəssisələrində ixtisas və ixtisaslaşmalar üzrə təhsil haqqının məbləğini müəyyən edir. Burada nəzərdə tutulur ki, hansısa özəl və ya bələdiyyə ali təhsil müəssisəsində təhsil haqqı Nazirlər Kabinetinin müəyyən etdiyi məbləğdən artıq olduğu halda dövlət büdcəsindən yalnız Nazirlər Kabinetinin həmin ixtisas və ya ixtisaslaşma üçün müəyyən etdiyi həcmdə vəsait ödənilir, təhsil haqqının qalan hissəsi isə vətəndaş tərəfindən ödənilir.

"Təhsil haqqında" Qanunda dəyişikliklər bundan ibarətdir. Bu dəyişikliklərə uyğun olaraq, Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının qanun layihəsi hazırlanıb. Bu qanun layihəsində 7 maddə var və hər bir

maddə hər bir qanunda edilən dəyişikliyi nəzərdə tutur. Mahiyyət etibarı ilə bu dəyişikliklər hamısı uyğunlaşdırma xarakteri daşıyır və mahiyyəti ondan ibarətdir ki, qeyd olunan kateqoriyadan olan şəxslər ali, orta ixtisas və peşə təhsili aldıqları müddətdə onların təhsil haqqının ödənilməsi Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununun 14.8-1-ci və 14.8-2-ci maddələrinə uyğun həyata keçirilir.

"Təhsil haqqında" Qanunda dəyişikliklərlə bağlı komitədə səslənən bir neçə təklifi də diqqətinizə çatdırmaq istərdim.

Birinci təklif ondan ibarətdir ki, dəyişiklik "Təhsil haqqında" Qanunun "Təhsil sisteminin idarə olunması, təhsil subyektlərinin hüquqları, vəzifələri və sosial müdafiəsi" adlanan 3-cü fəslinin "Təhsilalanların sosial müdafiəsi" adlanan 35-ci maddəsində edilsin. Çünki mahiyyət üzrə bu dəyişiklik bilavasitə təhsilalanların sosial müdafiəsi ilə bağlıdır və öz əksini də həmin maddədə tapması daha düzgün olardı.

Həmçinin qeyd etməliyəm ki, hazırda qüvvədə olan "Peşə təhsili haqqında" Qanunun "Peşə təhsili sisteminin idarə olunması, təhsil subyektlərinin hüquqları, vəzifələri və sosial müdafiəsi" adlı 3-cü fəslinin "Peşə təhsili müəssisəsində təhsilalanların və işçi heyətinin sosial müdafiəsi" adlanan 20-ci maddəsində təklif edilən bu dəyişikliklər öz əksini tapmışdır. Belə olan halda yaxşı olar ki, hər iki qanun eyni üslubda təqdim edilsin və sabah bunların tətbiqi zamanı hansısa anlaşılmazlıqlar olmasın.

İkinci təklif. Komitənin üzvü deputat Etibar Əliyev müzakirə zamanı bildirdi ki, şəhid övladının özəl ümumi təhsil müəssisələrində təhsili ilə bağlı ona müraciətlər

edilir. Bu müraciətlərin hamısını müsbət həll etmək mümkün olmur. Belə ki, bəzi özəl ümumtəhsil məktəbləri şəhid övladının təhsilini özləri qarşılayırlar, digərləri isə imkanları xaricində olduğunu bildirirlər.

Təklif ondan ibarətdir ki, mahiyyət üzrə 14.8-1.2-ci maddədə aşağıdakı dəyişiklik əlavə edilsin: "Şəhid övladı özəl ümumtəhsil məktəbini seçdiyi halda təhsil aldığı müddətdə onun təhsil haqqı dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilir". Burada söhbət şəhid ailəsinin üzvlərindən deyil, şəhid övladından gedir və o, özəl ümumtəhsil məktəbini seçərsə.

Bir məsələni də qeyd etmək istərdim ki, ümumi təhsildə təhsilin bir hissəsi icbaridir və bu da diqqətdə saxlanılmalıdır. Müzakirə zamanı bu təklifi komitənin bir neçə üzvü də təkrar səsləndirmiş və dəstəkləmişdir. Hesab edirik ki, bu məsələyə baxıla bilər.

Hörmətli deputatlar, sonda bir məsələni də diqqətinizə çatdırmaq istərdim. Milli Məclisin Elm və təhsil komitəsində fevral ayında qəbul zamanı şəhid ailələri, müharibə əlilləri, veteranları və əsgər ailələrini təmsil edən ictimai birliklər adından iki ictimai təşkilatın sədri qəbula gəlmiş və müraciət etmişlər. Onlar bildirdilər ki, Vətən müharibəsinin qəhrəman əsgərlərinin bir qismi əlilliyi müəyyən edilmiş gənclərdir və onların da bir hissəsi ali təhsil ala bilmədən vətəni qorumağa gediblər. İndi həmin qazilər ali təhsil almaq istəyirlər. Çünki ali təhsilləri olmadığına görə, onlar həm cəmiyyətin sosial, siyasi, iqtisadi həyatında fəal iştirak edə bilmirlər, həm də təklif edilən işlər də qaneedici olmur.

Mən dövlət tərəfindən bu istiqamətdə görülən işlər, qəbul edilmiş qanunlar barədə onlara ətraflı məlumat verdim. Bu məlumat onları qane etdi. Eyni zamanda, qeyd

etdilər ki, onlar Elm və Təhsil Nazirliyinə də müraciət ediblər, amma bu günə qədər cavab yoxdur.

Hörmətli deputatlar, nəzərinizə çatdırmaq istəyirəm ki, "Təhsil haqqında" Qanunun 22.3-1-ci maddəsinə görə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi ali təhsil müəssisələri və ixtisaslar üzrə bakalavriat səviyyəsində birillik ödənişli hazırlıq qrupları təşkil olunur. Hesab edirik ki, bu hazırlıq qrupları fəaliyyət göstərməli və qazilər müəyyən kvotalar əsasında hazırlıq qruplarına qəbul edilməlidirlər. Bilirsiniz ki, əvvəllər ali təhsil müəssisələrində belə hazırlıq qrupları olub. Hazırlıq qrupunda təhsili başa vurduqdan sonra onlar imtahan verirlər və həmin imtahanı uğurla keçənlər ali təhsilin bakalavriat səviyyəsinə birinci kursa müvafiq ixtisaslara qəbul olunurlar. Qazilərin birillik hazırlıq qruplarında təhsili onların ali məktəbə qəbula hazırlanmasına ən yaxşı dəstək ola bilər. Bu məsələni müvafiq icra hakimiyyəti orqanlarının bir daha nəzərdən keçirməsini xahiş edərdik. Bu məsələ sosial müdafiəyə ehtiyacı olan qəhrəman qazilər və bütövlükdə, cəmiyyət üçün əhəmiyyətli məsələdir.

Bütövlükdə, komitənin rəyi müsbətdir və qanun layihələrinə deputat həmkarlarımı səs verməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, 15-ci məsələyə Milli Məclisin daha 3 komitəsində baxılmışdır. Mən indi həmin komitələrin təmsilçilərinə söz verəcəyəm. Əmək və sosial siyasət komitəsinin rəyini bildirmək üçün komitənin üzvü hörmətli Əziz Ələkbərova söz verilir. Əziz müəllim, buyurun, komitənin rəyini bildirin.

**Ə.Ələkbərov,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Çox sağ olun. Hörmətli xanım sədr, qanun layihəsinə

bizim komitəmizdə də baxılmışdır. Komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun, Əziz müəllim. İnsan hüquqları komitəsində baxılmışdır. Hörmətli Zahid müəllim, buyurun, rəyi bildirin.

**Z.Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli Məclis üzvləri. Hörmətli Bəxtiyar müəllim bu məsələ üzərində geniş dayandı. Həqiqətən də, indiyə qədər mövcud olan, amma hazırda müzakirə etdiyimiz qanunvericilik aktları ilə əhatə dairəsi daha da genişləndirilən çox humanist, sosial dəyişikliklərdən söhbət gedir. Dövlətin siyasi simasını, sosial simasını bu cür layihələr təşkil edir. Bu, həm də təhsilini davam etdirə bilməyən və ya təhsil almaq imkanları zəif olan insanlarla bağlı bəzən media məkanında aparılan kampaniyalara da tutarlı bir cavabdır. Ona görə də biz, bax, bu cür layihələrdən faydalanan insanları, gələcəkdə uğur qazanan şəxsləri tanıtdırmalıyıq. O cümlədən, bu imtiyazlar üçün dövlətin ödədiyi vəsaitlər də mütəmadi olaraq ictimaiyyətə çatdırılmalıdır. Bunlar yalnız seçkilər dövründə təbliğ olunmalı deyil. Hökumət, dövlət strukturları, o cümlədən parlament həmişə bunun təbliğatını aparmalıdır.

Bizim komitədə də bu məsələyə müsbət rəy verilib. Hörmətli sədr, yalnız mən bir məsələni qeyd etmək istəyirəm. Bəxtiyar müəllim, bəlkə, aydınlıq gətirər. Mənim praktikamda belə bir müraciət olmuşdu. Bərdədən olan və hər 2 valideynini itirən şəxs 23 yaşı tamam olma ərəfəsində magistraturada təhsilə başlayıb. Bizim qanunvericilikdə güzəştlər həmin yaşa qədər müəyyən edilib. Həmin şəxs də təhsilin 1-ci ilini imtiyaz sayəsində dövlət hesabına başa vurmuşdu. Amma 2-ci il üçün artıq belə bir təminatı yox idi.

Mən hesab edirəm ki, biz qanunvericiliyə dövlət hesabına başlanan təhsilin sona qədər dövlət tərəfindən qarşılanması ilə bağlı bir müddəa əlavə etsək, bu, çox doğru olardı. Məsələn, burada imtiyazın övlad ana bətnində olduğu məqamdan hesablanmasına dair bir müddəa var. Bu, çox doğru qoyulub. Oxşar yanaşmanı biz yuxarıda dediyim məsələyə də şamil etsək, hesab edirəm ki, aztəminatlı, vətən qarşısında xidmətləri olanların xidmətini dəyərləndirmiş olarıq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siz komitənin rəyini bildirdiniz. Bu sual isə Sizin deputat kimi şəxsi sualınızdır. Məsələyə Ailə, qadın və uşaq məsələləri komitəsində də baxılıb. Hicran xanım, xahiş edirəm, rəy bildirin.

**H.Hüseynova.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli media nümayəndələri. Hörmətli Bəxtiyar müəllim qanunla bağlı çox ətraflı məlumat verdi. Lap xırda məsələlərə də toxundu. Mən ona çox minnətdaram.

Bizim komitədə baxılıb, komitənin rəyi müsbətdir. Yalnız bir məsələyə fikir bildirmək istərdim. Belə vacib qanun layihələrinin təbliğatının aparılması çox yaxşı olardı. Bəxtiyar müəllim özü də bir çox şəhid ailələri, qazilərin nümayəndələri ilə görüşünü qeyd etdi.

Bəzən vətəndaşlar məlumatsız olduqları üçün dövlətin yaratdığı bu imkanlardan istifadə edə bilmirlər. Mənə elə gəlir ki, bu məsələlərin təbliğatını daha əhatəli aparmaq lazımdır. Məncə, bu, çox vacib bir məsələdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Bəli, qeyd etdiniz ki, komitənin rəyi müsbətdir.

Siz dediyiniz məsələlərlə bağlı isə bildirmək istəyirəm ki, mən həmişə ictimaiyyətin məlumatlandırılmasının

tərəfdarı olmuşam. Hazırda iclasa 50-yə yaxın jurnalist dəvət olunub. Elə iclas zamanı da çıxa bilərsiniz, müsahibə də verə bilərsiniz. Eyni zamanda, Milli Məclisin "YouTube" kanalı da var. Təkliflə çıxış edin. Yəni qanun layihəsi ilə bağlı əsas komitə – Elm və təhsil komitəsi, həm də digər müvafiq komitələr burada müzakirə apara bilərlər. Mən buna təbliğat deməzdim. Daha doğrusu, belə qanunlarla bağlı cəmiyyətə izahatın verilməsi deməkdir. Mən bunu həmişə təklif etmişəm və dəstəkləyirəm.

Hörmətli həmkarlar, məsələnin müzakirəsinə başlayırıq. 9 nəfər yazılıb. Birinci söz alan isə Razi müəllimdir. Razi müəllim, sualınız, təklifiniz var. Buyurun.

**R.Nurullayev.** Təşəkkür edirəm. Xanım sədr, hörmətli deputatlar. Xanım sədr, mən çıxışa yazılmışdım, amma ehtiyac görmədim danışmağa. Kifayət qədər gözəl dəyişikliklərdir və mən dəstəkləyirəm, səs verəcəyəm. Bir sualım var.

Sual bundan ibarətdir ki, qanunun 14.8-1.3-cü maddəsində deyilir ki, "dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslər"in təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. Arayış hissəsində isə deyilir ki, "Müharibə veteranı" adı almış şəxslər yalnız peşə təhsili müəssisələrində təhsil ala bilər". Bu, bütün bəndlərə aid edilir. Burada bir aydınlıq olmalıdır ki, bu, bütün təhsil müəssisələrinə aid edilir, yoxsa ayrı-ayrı kateqoriyalarda ayrı-ayrı peşə sahələrinə, institutlara, universitetlərə və digərlərinə aid edilir? Bununla bağlı bir aydınlıq gətirilməsini istərdim. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Musa Quliyev. Musa müəllim, buyurun.

**M.Quliyev.** Çox sağ olun, hörmətli xanım sədr. Əlbəttə, bu qanun layihəsini dəstəkləyəcəyik. Çox gözəl qanun layihəsidir. Xüsusi ilə sosial müdafiəyə ehtiyacı olan şəxslərin təhsilinə geniş imkanlar yaradır və dövlət dəstəyi göstərir.

Burada hörmətli Zahid müəllimin qaldırdığı məsələni mən də dəstəkləyirəm. Hörmətli Bəxtiyar müəllimdən xahiş edirəm, həmin məsələni qanun layihəsinin subyekti ilə müzakirə etsin. Çünki çox gözəldir ki, "Müharibə veteranı" adı almış şəxslərə heç bir yaş məhdudiyyəti yoxdur, istəyir 30 yaşında instituta girsin, dövlət onun təminatını verəcək. Amma şəhid ailələri üzvləri, bir də valideyn himayəsindən məhrum olmuş uşaqlara 23 yaş son yaş həddidir, yəni 23 yaşından sonra bu məhdudiyyət var. Bu məhdudiyyətlər aradan qaldırılsın. Bu insanlar istədiyi yaşda təhsil ala bilsinlər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. İndi isə çıxışlara keçək. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Əlbəttə, çox mütərəqqi layihədir və öncədən qeyd edim ki, dəstəkləyəcəyəm.

Bildiyiniz kimi, həssas təbəqədən olan soydaşlarımız, onların ailə üzvləri şəxsən möhtərəm Prezidentin və o cümlədən çox hörmətli Mehriban xanım Əliyevanın daimi diqqəti ilə əhatə olunub. Xüsusən Heydər Əliyev Fondunun fəaliyyətinin mühüm bir istiqaməti məhz şəhid ailələri və müharibə əlilləri, habelə sosial qayğıya ehtiyacı olan digər təbəqələrlə işi ehtiva edir.

Qeyd edildiyi kimi, bu layihə isə, sadəcə, imtiyaz dairəsini genişləndirir. Yəni daha dəqiq desək, özəl, ali,

orta ixtisas və peşə təhsili müəssisələrində şəhid ailəsi üzvlərinin təhsil xərclərinin dövlət büdcəsi hesabına ödənilməsini nəzərdə tutur. Əlbəttə, bu, həm həssas təbəqəyə, həm də özəl sektora böyük diqqət və qayğıdır. Xüsusi ilə nəzərə alsaq ki, indiki quruculuq və bərpaya, Böyük Qayıdışa, ordu quruculuğuna böyük vəsaitlərin xərcləndiyi bir dönəmdə bu addım ciddi siyasi iradənin göstəricisidir.

Eyni zamanda, onu da qeyd etməliyik ki, özəl təhsil müəssisələrimizin böyük əksəriyyəti, xüsusən orta təhsil müəssisələri 2020-ci ildən etibarən şəhid ailələri və müharibə əlillərinin övladları üçün güzəştli münasibət sərgiləyir.

Məsələn, təmsil etdiyim dairədə mövcud olan Mübariz İbrahimov adına Biləsuvar Təhsil Kompleksində 25 şəhid övladı tam formada müəssisənin hesabına, 17 müharibə iştirakçısının uşağı isə 50 faiz güzəştlə təhsil alır.

O cümlədən, digər özəl orta təhsil müəssisələrində bununla bağlı xeyli nümunə var. Yəni özəl təhsil müəssisələrimiz sosial məsuliyyətlərini kifayət qədər yaxşı anlayır. Belə bir məqamda biz də o müəssisələrin özlərinin problemlərinə də həssaslıqla yanaşmalıyıq. Məsələn, həmin müəssisələrin müəllimləri də dövlət məktəblərində işləyən müəllimlər üçün yaradılan hüquqi imkanlardan faydalana bilməlidir. Bu gün özəl təhsil müəssisələrinin müəllimləri, baxmayaraq ki, bir qayda olaraq, dövlət məktəblərindən daha yaxşı ödəniş qabiliyyətinə malikdirlər, amma dövlətin güzəştli ipotekasından yararlana bilmirlər.

Bu mənada aidiyyəti strukturlardan mövcud situasiya fonunda bu problemin aradan qaldırılmasına yardımçı olmağı xahiş edirik. Yəni bunun üçün heç bir maliyyə

vəsaiti tələb olunmur. Sadəcə, özəl təhsil müəssisələrinin müəllimlərinə imkan verilməlidir ki, öz hesablarına güzəştli ipoteka kreditindən faydalana bilsinlər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov. Buyurun.

**H.Məmmədov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən bu qanun layihəsinə səs verəcəyəm. Doğrudan da, bu qanun layihəsi Azərbaycanda təhsilin inklüzivliyini təmin etmək üçündür. Bu qanunun xüsusi humanist missiyası var. Ona görə ki, təhsilin əlçatanlığını təmin etmək üçün sosial təminatı zəif olan vətəndaşlarımızın və yaxud xüsusi status verdiyimiz şəhid ailələrinin, qazilərin, müharibə iştirakçılarının övladları, ailə üzvləri üçün pulsuz təhsili əlçatan edir. Bu özlüyündə çox mühüm bir hadisədir.

Ancaq mənə elə gəlir ki, biz məsələyə daha geniş baxmalıyıq. Bu nədən ibarətdir? Azərbaycan Prezidenti cənab İlham Əliyev Milli Məclisdəki çıxışında qeyd etdi ki, təhlükəsizliyimizi təhdid edən ideoloji risklər var. Bu risklərin bir qismi də, mənə elə gəlir, ümumi dünyagörüşü ilə bağlıdır, ideoloji məsələlərlə bağlıdır ki, təhsilin burada xüsusi funksiyası var. Ona görə də mən təklif edərdim ki, əgər mümkündürsə, azərbaycanlı ortaq sosial identikliyini, ortaq sosial milli kimliyimizi Azərbaycanın inzibati-siyasi sərhədlərindən də kənarda təmin etmək üçün Azərbaycan vətəndaşı olmayan və Azərbaycandan kənarda yaşayan azərbaycanlıların da müəyyən kvota əsasında Azərbaycan universitetlərində təhsil almasına və pulsuz təhsil almasına köməklik göstərək.

Biz bilirik ki, Gürcüstan vətəndaşı olan, Gürcüstanda yaşayan çoxlu soydaşlarımız var. Hər bir universitet müəyyən bir kvota ayırıb onları təhsilə cəlb edə bilər,

şübhəsiz ki, müvafiq qəbul prosedurları nəzərə alınmaqla.

İkincisi, Dərbənddə, Rusiya Federasiyasında, üçüncüsü, qonşu İranda, dördüncüsü, qonşu Türkiyədə azərbaycanlılar yaşayır. Onlarla ortaq etnik identikliyimizi itirməmək, sosial bağlarımızı gücləndirmək üçün, millət olaraq kütləvi sinxron hərəkətimizin həm də ideoloji müstəvidə təmin olunması üçün, mən düşünürəm ki, hər hansı bir dövlət universitetində və yaxud özəl universitetdə ildə 5-10 nəfərə ödənişsiz təhsil almaq imtiyazının verilməsi çətin olmaz.

Başqa bir məsələ. Hörmətli xanım sədr, məncə, bu məsələ bizim digər qanunlarımızda yoxdur. 14.8.1-ci maddədə qeyd olunur ki, "sosial müdafiəyə xüsusi ehtiyacı olan aşağıdakı şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir". Burada "xüsusi" sözü, mənə elə gəlir ki, lazım deyil. Çünki biz sosial təminat verən zaman xüsusi ehtiyacı olanlara vermirik. Ümumiyyətlə, ya veririk, ya da vermirik. Ona görə də biz necə müəyyənləşdirək ki, kimin xüsusi ehtiyacı var, kiminsə ehtiyacı qeyri-xüsusidir. Ona görə mən düşünürəm ki, bu məsələyə diqqət yetirmək lazımdır.

İkincisi, burada – 14.8.-1.4-cü maddədə qeyd olunub: "orqanizmin funksiyalarının 61–100 faiz pozulmasına görə". Beyin insan orqanizmlərindən biridir və funksional orqanlarımızdan biridir. Əgər 100 faiz funksionallığını itiribsə, bu, necə təhsil alacaqdır? Yaxud 60 faiz itiribsə, üstəgəl 1 faizi biz necə müəyyənləşdirəcəyik? Azərbaycanda elə xüsusi tibbi ləvazimatlar varmı ki, orqanizmin bir faiz funksiyasını itirdiyini təyin etsin? Bu cür rəqəmləri mən başa düşmürəm. Əgər bunun bir izahı varsa, demək, buna qayıtmaq lazımdır və xüsusi izahat

vermək lazımdır.

Mən bir daha Azərbaycan Prezidentinin dediyi məsələyə qayıdıram ki, müstəqil Azərbaycan dünyada yaşayan bütün azərbaycanlıların vətənidir. Bax, bu çağırış kontekstində mən bir daha qeyd edirəm ki, biz qonşu ölkələrdə yaşayan soydaşlarımızı da ödənişsiz təhsil alanların kateqoriyasına daxil etsək, ümumi milli mənafelərimiz və təhlükəsizlik baxımından faydalı olar. Çünki onların ideoloji təfəkkürləri, milli düşüncələri daim təzyiq altında olur, deformasiyaya uğrayır. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Hikmət müəllim. Emin Hacıyev. Buyurun.

**E.Hacıyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputatlar və media nümayəndələri. Mən də hesab edirəm ki, bu qanun layihəsi olduqca əhəmiyyətli sənəddir. Təqdimatdan da göründüyü kimi, "Təhsil haqqında" Qanunda dövlət büdcəsi vəsaiti hesabına təhsil alan şəxslərin dairəsinin göstərilməsi qanunvericilik texnikası baxımından bir çox üstünlüklər yaradır. Çünki hazırda güzəşt, imtiyazlar bir sıra qanunlarda, həmçinin fərman və qərarlarda təsbit olunmuşdur. Eyni zamanda, layihədə imtiyazlı kateqoriyanın əhatə dairəsi daha da genişləndirilir.

Layihəni yalnız sosial müdafiəyə xüsusi ehtiyacı olan insanların sosial müdafiəsi baxımından qiymətləndirmək azdır. Bu layihə ali, orta ixtisas və peşə təhsilinə əlçatanlığın artırılması baxımından da diqqəti cəlb edir.

Son illərdə peşə təhsilinin inkişafı, həmçinin ali və orta ixtisas təhsil planının, eyni zamanda, dövlət sifarişli plan yerlərinin əhəmiyyətli artımı insanların ali təhsilə əlçatanlığını yüksəldir. Bu, olduqca müsbət haldır. Hesab edirəm ki, bu layihə də bu tədbirlərin davamıdır.

İlk növbədə qeyd edim ki, biz təhsil haqqının dövlət hesabına tam ödənilməsi, yaxud tələbə krediti sisteminin tətbiqi ilə yanaşı, digər üsulların da tətbiqini nəzərdən keçirə bilərik. Misal olaraq, təhsil haqqının bir qisminin dövlət hesabına ödənilməsi sistemi. Bu, şəxsin topladığı balın miqdarından asılı ola bilər. Şəxs dövlət sifarişini əldə edə bilmir, amma yüksək bal topladıqda biz ona qismən güzəştlər verə bilərik. Yaxud müəyyən şərtlər daxilində şəxsin təhsil haqqını dövlətin ödəməsi mexanizmi qurula bilər. Məlumat üçün qeyd edim ki, qanunda dəyişiklik edilməsi ilə bir müddət öncə daxili işlər orqanları üçün kadr hazırlığında bu cür yanaşmalar tətbiq edildi. Hesab edirəm ki, bu cür mexanizmin mülki təhsilə münasibətdə də qurulmasına ehtiyac vardır.

Eyni zamanda, fikrimcə, tələbə krediti sisteminin qiyabi təhsil alan və xaricdə öz vəsaiti hesabına təhsil alan tələbələrə də şamil olunması müsbət addım olardı.

Bir misal gətirim. Bilirik ki, regionlarda ciddi həkim çatışmazlığı var və həkim hazırlığı isə kifayət qədər bahalı prosesdir. Belə olduqda bəzən həkimlər rayonlarda işləməyə həvəs göstərmir, eyni zamanda, son illərdə ixtisaslı həkimlərin xaricə axını da baş verir. Mən hesab edirəm ki, regionda azı 5 il işləmək şərti ilə ödənişli əsaslarla təhsil alanların təhsil haqqının bir qisminin dövlət tərəfindən ödənilməsi təklif oluna bilər.

Növbəti təklifim ali tədris müddətinin bəzi ixtisaslar üzrə 4 ildən 3 ilə endirilməsi ilə bağlıdır. Biz yeni tədris proqramları vasitəsi ilə buna nail ola bilərik. Müasir dövrdə elmi biliklərin sürətlə yenilənməsi təhsil müddətinin azaldılmasını və verilən biliklərin müasir əmək bazarına uyğunlaşdırılmasını tələb edir. Bir sıra ölkələrdə, o cümlədən Avropa universitetlərinin bəzilərində tədris

müddəti 3 ildir. Müəyyən dəyişikliklər və tənzimləmələr ilə biz daha çevik təhsil sistemi yarada bilərik.

Qaldırmaq istədiyim digər bir məsələ ali təhsil müəssisəsinə qəbul olarkən yüksək nəticə göstərən və təhsil aldığı yerdə daimi yaşayış yeri olmayan şəxslərin yataqxana probleminin həlli ilə bağlıdır. Bu yaxınlarda qəbul imtahanlarında 696 bal toplayaraq III qrup üzrə ölkə birincisi olan ADA Universitetinin tələbəsinin qardaşı ilə birlikdə kirayədə qaldığı çox şəraitsiz bir mənzildə dəm qazından dünyasını dəyişməsi bizi hədsiz sarsıtdı. Hesab edirəm ki, tələbə yataqxanalarının tikintisində dövlət–özəl tərəfdaşlığının olması müsbət nəticə verə bilər.

Dövlət tərəfindən yataqxana tikintisi üçün müəyyən ərazilər təyin olunaraq ayrılarsa, kredit və ya digər güzəştlər təklif olunarsa, bu, sahibkarlıq üçün stimullaşdırıcı rol oynayacaq. Bununla da, düşünürəm ki, maddi baxımdan əziyyət çəkən bir çox tələbənin yaşayış yeri problemi həll oluna bilər.

Sonda layihə ilə bağlı bir texniki düzəlişi də təklif etmək istəyirəm. Belə ki, layihəyə görə təhsil haqqı dövlət vəsaiti hesabına ödənilənlər sırasında dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan, Azərbaycan Respublikasının ərazı bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan vətəndaşların uşaqları da vardır. Mən təklif edərdim ki, burada "uşaqları" sözünün əvəzinə "övladları" ifadəsi işlənsin. Çünki "uşaq" ifadəsi hərfi mənada 18 yaşına çatmayanları nəzərdə tutur, halbuki onlar təhsilin mühüm hissəsini 18 yaşdan...

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Bəri başdan deyim ki, bu qanun layihəsini çox müsbət bir dəyişiklik olaraq qiymətləndirirəm və buna səs verəcəyəm. Hesab edirəm ki, xüsusi ilə də burada hörmətli Bəxtiyar müəllimin də qeyd etdiyi kimi, şəhid övladlarının özəl məktəblərdə təhsil haqqının dövlət büdcəsi hesabına ödənilməsi çox mütərəqqi və müsbət bir dəyişiklikdir. Bu, həm də həmin ailələrə dövlətin verdiyi bir dəyərdir və bu, bizim üçün də olduqca vacib bir addımdır.

Digər tərəfdən, mən də hesab edirəm ki, bu qanun layihəsində qonşu dövlətlərdən olan bəzi tələbələrin dövlət büdcəsi hesabına təhsil haqqının ödənilməsi imkanları nəzərdə tutulmalıdır. Çünki xaricdə yaşayan elə azərbaycanlılar var ki, onların burada təhsil almasına biz köməklik göstərməliyik. Bu bizim dövlət olaraq strateji maraqlarımıza uyğun bir addım olardı.

Digər bir məsələ, bildiyiniz kimi, bizdə publik hüquqi şəxslərin yaradılması tendensiyası xüsusi ilə də ali məktəblər üzərindən genişlənməkdədir və təhsilin inkişafına dair dövlət strategiyasında da birmənalı şəkildə göstərilir ki, ali məktəblərin muxtariyyəti, onların maddi bazasının genişləndirilməsi istiqamətində müəyyən fəaliyyətlərinə imkan yaradılmalıdır. Amma bütün bu maliyyələşdirməni bütünlüklə dövlət büdcəsi hesabına həyata keçirmək büdcə üçün də müəyyən dərəcədə problemlər yarada bilər. Ona görə də biz daha rasional yolun tapılmasına çalışmalıyıq. Əlbəttə, bəziləri dövlət büdcəsi hesabına olmalıdır. Amma biz ali məktəblərin muxtariyyətini, müstəqilliyini, maliyyə müstəqilliyini təmin edə bilsək, elə bu kateqoriyadan olan insanların xeyli hissəsini də ali məktəbin özü maliyyələşdirə bilər. Bu nə ilə bağlıdır? Deməli, ali təhsil

müəssisələrindən müvafiq icra hakimiyyəti orqanı, yəni Elm və Təhsil Nazirliyi ödənişli təhsil alan tələbələrin sayına müvafiq olaraq yığılan vəsaitin əhəmiyyətli hissəsini – 500 min manatdan haradasa 1 milyon 200 min manata qədərini nazirliyin nəzdində yaradılan Təhsilin İnkişafı Fonduna köçürür. Bunu məcburi qaydada həyata keçirirlər. Bu vəsait nazirliyin işçilərinin sosial müdafiəsinə və hədəfləri bəlli olmayan qrant layihələrinə sərf olunur.

İndi maraqlıdır, bu universitet öz müəlliminə, yaxud öz tələbəsinə, yaxud da özünün maddi ehtiyaclarına sərf edəcəyi vəsaiti niyə nazirliyə köçürməlidir? Axı, bu, muxtariyyət prinsipinə uyğun deyil. Yəni qoy, universitet özü öz müəlliminin problemini həll etsin, öz qrantlarını müəyyən etsin, öz tələbəsinin məsələsini həll etsin. Yəni biz universitetin işinə mərkəzləşmiş qaydada müdaxilə ilə, əslində, bu kateqoriyadan olan insanların problemini də dövlət büdcəsinə yönəltmiş oluruq. Biz dövlət büdcəsini niyə belə yükləməliyik? Digər tərəfdən də, Bakı Dövlət Universiteti kimi flaqman bir universitetin yataqxana problemi həll oluna bilmədi. Maddi bazası yoxdur, yəni özəl, yaxud da dövlət–özəl əməkdaşlığı səviyyəsində də bu tikilmədi. 15 il, 20 il keçdi və Bakı Dövlət Universitetində oxuyan tələbələr yataqxanasız qaldılar. Söhbət ilk növbədə imkansız tələbələrdən gedir. Bu, tələbə mühitinin olmadığını göstərən əsas amillərdən, detallardan biridir. O baxımdan da mən hesab edirəm ki, bu cür ödənişlərin qarşısı alınmalıdır və universitetə bu imkan verilməlidir. Universitet onda şəhid ailəsinə də, deyək ki, hansı isə bir əlilə də bu funksiyanı tətbiq edə bilər.

Bir də burada nəzərdə tutulan Çernobıl əlilləri ilə bağlı məsələ var. O məsələdə qeyd olunur ki, – mən bunun tərəfdarıyam, amma burada bir də əlavə bir müddəa

salınır, – “birbaşa radioaktiv şüalanmaya məruz qalma ehtimalı olmuş valideynlərin birindən olan uşaqlar”. Bunu müəyyən etmək çox böyük bir problemdir. Məsələn, deyək ki, mən də Çernobıl hadisəsi baş verəndə Ukraynada hərbi xidmətdə olmuşam. Onda mən də iddia edə bilirəm ki, orada olmuşam, Çernobıl hadisəsi baş verəndə mən də şüalanmışam. Belə mücərrəd ifadələrin salınması, əslində, qanunda sonra müəyyən çətinliklər yaradır və sui-istifadəyə yol açır. Ona görə də konkret kim ki xəsarət alıb, həkim rəyi ilə təsdiq olunubsa, onların uşaqlarına aid olunması daha konkretləşməyə imkan yaradacaqdır. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Musa Qasımlı. Buyurun.

**M.Qasımlı**. Hörmətli xanım sədr, əziz həmkarlar. Cənab Prezidentimiz tərəfindən təqdim edilmiş qanun layihəsi mütərəqqidir. Bu bizim dövlətimizin şəhid ailələrinə qayğısının konkret təzahürüdür. Eyni zamanda, təhsilin hamı üçün əlçatan olmasına yönəlmiş dövlət siyasətimizin həyata keçirilməsidir.

Bununla şəhid ailələrinin yükü azalacaq, həmin yükü dövlət öz üzərinə götürəcək. Bu təhsil ödənişsiz deyil, dövlət büdcəsi hesabınadır. Ona görə, heç şübhəsiz, indiki şəraitdə, böyük quruculuq işlərinin getdiyi bir zamanda belə bir addımın atılması yalnız müsbət qiymətləndirilməlidir və hörmətli Sahibə xanım, Sizin dediyiniz o fikrə tamamilə şərikəm ki, bu qanun qəbul ediləndən sonra geniş şəkildə izah olunmalıdır.

İkinci söyləyəcəyim məsələ, biz təhsilimizin bütün pillələrində keyfiyyətə fikir verməliyik və universitetlərimizin müstəqilliyinə çalışmalıyıq. Nə vaxta qədər ki universitetlərimizdə muxtariyyət, müstəqillik çox deyil, o vaxta qədər də bu yüklərin çoxu dövlət büdcəsinin üzərinə

düşəcək. Amma universitetlər müstəqil olsalar, onlar beynəlxalq reytinqlərə daxil ola bilərlər və digər problemləri də həll edə bilərlər.

Üçüncü söyləcəyim məsələ. Bilirsiniz, məndən əvvəl də söylədilər, mən də qeyd etmişdim. Bizdə Təhsilin İnkişafı Fondu var. Əgər Təhsilin İnkişafı Fondunun vəsaitləri həssas təbəqələrin övladlarının təhsil haqqının ödənilməsinə yönəlmirsə, bu işi dövlət görürsə, bəs o fond nə üçündür? Yaxşı, biz nə vaxta qədər dövləti yükləməliyik, hər şeyi dövlət büdcəsinin üzərinə qoymalıyıq? Məncə, bu məsələlərdə yeni baxışlar lazımdır. Hesab edirəm ki, bu qanun layihəsi çox vacibdir, yerindədir, lehinə səs verəcəyəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. Azər Badamov. Buyurun.

**A.Badamov**. Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli həmkarlar, təqdim olunmuş qanun layihələrindəki dəyişiklikləri əhəmiyyətli hesab edirəm. Bu baxımdan dəstəkləyirəm və səs verəcəyəm.

Hörmətli Sahibə xanım, "Veteranlar haqqında" Qanunla bağlı məsələ də müzakirə olunduğundan, polisdə xidmətini davam etdirən veteranların bir məsələ ilə bağlı mənə müraciətlərini, icazənizlə, qısa olaraq diqqətinizə çatdırmaq istəyirəm. Əvvəlcə qeyd etmək istəyirəm ki, Birinci və İkinci Qarabağ müharibələri zamanı polisimiz əsl fədakarlıq nümayiş etdirmişdir. İkinci Qarabağ müharibəsində polisimiz arxa cəbhədə öz xidməti vəzifəsini fədakarcasına davam etdirsə də, Birinci Qarabağ müharibəsinin başlandığı ilk gündən əlinə silah alaraq ön cəbhədə düşmənlə vuruşub əsl qəhrəmanlıq göstərmişdir.

Birinci Qarabağ müharibəsində qəhrəmancasına döyüşmüş polis veteranlarımızın bir hissəsi bu gün də xid-

mətlərini şərəflə davam etdirirlər. Bu gün xidmətini davam etdirən veteran polislərimizin mənzillə təmin olunmayanlarının bir hissəsi xidməti evlərdə yaşayırlar. Amma müvafiq qanuna görə, xidmət müddəti başa çatanda, yəni təqaüdə çıxanda onlar xidməti evlərini təhvil verməlidirlər. Bu da uzun illər sədaqətlə vətənə xidmət edən və mənzili olmayan polis ailələrini çətinliklərlə qarşılaşdırır.

Veteran polislər xidmət müddəti başa çatandan sonra onların mənzillə təmin olunana qədər xidməti mənzillərdə yaşamalarının davam etdirilməsi ilə bağlı qanunda müvafiq dəyişikliyin olunması mümkünlüyünə baxılmasını xahiş edirlər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sabir Rüstəmxanlı. Buyurun.

**S.Rüstəmxanlı.** Təşəkkür edirəm, hörmətli sədr. Qanun layihəsində təklif olunan bu dəyişikliklər son dərəcə ciddi ictimai-siyasi bir hadisədir. Məncə, Azərbaycan dövlətinin şəhid ailələrinin, qazilərin problemlərinin həlli istiqamətində atdığı addımların növbəti bir mərhələsidir. Sənəd son dərəcə vacib məsələlərin həllinə yönəlib.

Mən geniş danışmaq istəmirəm. Mənim demək istədiyim məsələlərin birini hörmətli həmkarım Hikmət bəy burada dedi. Əgər biz tək Azərbaycan dövlətinin deyil, Azərbaycan xalqının, millətinin gələcəyini, regionda gedən proseslərin perspektivlərini düşünürüksə, hökmən Azərbaycan sərhədlərindən kənarda yaşayan soydaşlarımızın, vətəndaşlarımızın da müəyyən problemlərini düşünməli, nəzərə almalıyıq. Azərbaycanda Güneydən gələn xeyli tələbə təhsil alır və ödənişlərin miqdarına görə onların bəziləri təhsilini yarımçıq qoyurlar, bəziləri isə, ümumiyyətlə, gələ bilmirlər. Biz Azərbaycanın milli maraqlarını nəzərə alaraq, onlara burada müəyyən şəraitlər

yaratmalıyıq. Mən hesab edirəm ki, onlar da təhsil haqqından azad olunanlar kateqoriyasına daxil edilməlidir və imkan daxilində oradan gələnlərə biz burada şərait yaratmalıyıq.

İndi deyirlər, "iştah diş altındadır". Hökumət müəyyən bir layihə təklif edib. Biz bunu sonsuz miqdarda artıra bilmərik. Amma vaxtı ilə repressiya qurbanı olmuş və Orta Asiyaya, uzaq ölkələrə sürgün edilmiş ailələr var. Onların uşaqları ilə mən rastlaşmışam. Onların Azərbaycanda gəlib təhsil almaları və burada məskunlaşmaları çox böyük bir problemdir. Yəni vətəndaş buradan sürgün olunub, qayıdıb burada vətəndaşlıq ala bilmir, atasının, babasının yurdunda yaşaya bilmir və burada övladlarını da oxuda bilmir. Bax, bu məsələ, ümumiyyətlə, prinsipial bir məsələdir və başqa bir şəkildə, başqa bir səviyyədə həll olunmalıdır.

Türkiyədə, məsələn, belə bir qurum var, daha doğrusu, belə bir qanun var. Digər türk dövlətlərindən gələn tələbələrə güzəştlər edirlər, onların oxumağına şərait yaradırlar. Bizim, bəlkə də, bütün türk dünyasından gələnlər üçün burada şərait yaratmağa gücümüz çatmaz. Amma hər halda, əgər bir inteqrasiya, türk dünyası ilə bütövləşmə nəzərdə tutulursa, ilk növbədə, oradan gələn, Özbəkistandan, Qazaxıstandan gələn azərbaycanlı uşaqların və sonra da elə o bizə qardaş xalqların övladlarının burada təhsil almalarına şərait yaratmalıyıq. Nəticədə gediş-gəlişimiz artsın və bu dediyimiz inteqrasiya, yaxınlaşma, bütövləşmə prosesi sürətlənsin. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sədaqət Vəliyeva. Sədaqət xanım, buyurun.

**S.Vəliyeva**. Sahibə xanım, söz verdiyiniz üçün təşəkkür edirəm. Bugünkü qanun layihələri çox mütərəqqi qanun

layihələridir. Mən də bütün həmkarlarım kimi dəstəkləyirəm və səs verəcəyəm.

Şəhid ailələri Azərbaycan dövlətinin, xüsusi ilə də cənab Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı ilə daim əhatə olunub. Bu kateqoriyadan insanların həyat səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində mütəmadi olaraq sosial tədbirlər həyata keçirilir. Şəhid ailələri, qazilər mənzillərlə, avtomobillərlə, işlə təmin olunurlar. Xatırlatmaq istərdim ki, elə Milli Məclisdə də, hörmətli Sahibə xanım, Sizin təşəbbüsünüzlə müvafiq kateqoriyadan olan insanlar, şəxslər çalışırlar. Mənim təklifim var ki, şəhid adının əbədiləşdirilməsi üçün rayonlarımızda şəhid parkları salınsın. Düzdür, bir çox rayonda var, amma istərdim ki, hər yerdə olsun. Orada şəhidlərin guşələri yaradılsın. Xalqımız da daim onları ziyarət edəcək, dərin hörmətlə yad edəcək və bu, gələcək nəsillərin vətənpərvərlik ruhunda böyüməsinə də böyük təkan vermiş olacaq.

Bir də, peşə təhsili ilə bağlı öz fikirlərimi demək istəyirəm. Mən Sabir müəllimin də fikrini dəstəkləyirəm. Peşə təhsili təhsilin çox mühüm bir hissəsidir və düşünürəm ki, bəlkə, peşə təhsilinə 11-ci sinifdən yox, 9-cu sinifdən başlanılsa, daha yaxşı olar. Çünki 11 il müddətində bu insanlar burada vaxt keçirirlər, məktəbi bitirdikdən sonra çoxları, haradasa 50 faizə yaxın bir hissəsi heç ali təhsil müəssisələrinə qəbul üçün müraciət etmirlər. Hərbi xidməti başa vurduqdan sonra isə artıq onların peşə təhsili almağa marağı olmur. Əgər 9-cu sinifdən bunlar peşə təhsilinə də cəlb olunsalar, elə həm orta təhsili başa vurmuş olarlar, həm də bir peşə sahibi olarlar ki, hərbi xidmətdən qayıdandan sonra əllərində sənətləri olsun.

Digər bir məsələ. Ödəmə ilə bağlı mühüm bir məsələdir. Sabir müəllim çox düz dedi. Bir çoxları peşə məktəblərini təhsil haqqını ödəyə bilmədikləri üçün tərk edirlər. Düşünürəm, bəlkə peşə təhsilinə də tələbə krediti ayrılsa, çox yaxşı olar. Böyük bir məbləğ də deyil. Peşə təhsilinə də kredit verilsə, onlar təhsillərini yarımçıq qoyub məktəblərdən çıxmazlar. Diqqətinizə görə çox təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bir çox çıxışlar oldu. Ancaq onu da qeyd etmək məcburiyyətindəyəm ki, bəzi çıxışların bu qanuna heç bir aidiyyəti yox idi. Mən heç kimin çıxışını dayandırmadım, amma xahiş edirəm, qanun layihəsi ətrafında danışın, bunu nəzərə alın.

İndi isə bizim fasilə vaxtımızdır. Əgər etiraz etmirsinizsə...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda fasiləsiz. Hörmətli həmkarlar, mən qanun layihələrini bir-bir səsə qoyuram. Xahiş edirəm, 14-cü məsələyə, yəni "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə 15-ci məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ 16-cı məsələdir. Bu, "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü Kamal Cəfərova söz verirəm. Buyurun, Kamal müəllim.

**K.Cəfərov**. Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihəsinin konseptual məqsədi dövlət qulluğunun xüsusi növü olan vergi orqanı əməkdaşlarının hüquqi vəziyyətinin əsaslarını Əmək Məcəlləsinin və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun standartları əsasında unifikasiya etməkdir. Təklif edilən uyğunlaşdırmaları isə bir neçə qrupda təsnifləşdirə bilərik.

Birinci qrupa vergi orqanlarına xidmətə qəbul olunan şəxslərin staj və sınaq müddətinin müəyyən edilməsi, onun xidmət illərinə daxil edilməsi, eyni zamanda, staj və sınaq keçmə qaydalarının əsasının müəyyən edilməsi aiddir.

Uyğunlaşdırmaların ikinci qrupunda rütbələrin verilməsində sui-istifadə hallarının qarşısının alınması məqsədi ilə növbədənkənar rütbənin verilməsi, digər rütbəyə keçirilməsi, onların dövlət qulluğu və xüsusi növdə olan rütbələrlə qarşılıqlı uyğunlaşdırılması ilə bağlı bəzi müddəaların təkmilləşdirilməsi təklif edilir.

Üçüncü qrup təsnifata həvəsləndirmə və intizam tədbirlərini aid etmək olar. Vergi orqanlarının vəzifəli şəxslərinin həvəsləndirmə qaydasının təkmilləşdirilməsi, habelə bu çərçivədə onlara "fəxri vergi orqanı işçisi" adının verilməsi təklif edilir. Eyni zamanda, qanun layihəsində vergi orqanı işçilərinin məsuliyyətinin gücləndirilməsi məqsədi ilə intizam tənbehi tədbirinin tətbiqi ilə bağlı tənzimləmələrin Əmək Məcəlləsinə və "Dövlət qulluğu haqqında" Qanunun tələblərinə uyğunlaşdırılması müəyyən edilir.

Sonuncu, dördüncü qrup təsnifata isə sosial müdafiə və maddi təminatla bağlı müddəalar daxildir. Misal üçün, Fövqəladə Hallar və Ədliyyə nazirliklərinin təcrübəsinə uyğun olaraq, elmi dərəcələrə görə eyni miqdarda əlavənin verilməsi təklif edilir. Eyni zamanda, vergi orqanlarının vəzifəli şəxslərinə xüsusi rütbələrə görə verilən maaşların "Dövlət qulluğu haqqında" Qanunda müəyyən edilmiş məbləğlərə identik uyğunlaşdırılması təklif edilir.

Əziz həmkarlar, təklif edilən dəyişikliklər vergi xidmətinin keyfiyyətini daha da artıracaq, qurum daxilində rəqabət mühitinin təkmilləşməsi üçün yeni imkanlar yaradacaq və bu sahədə kadr siyasətinin sabitliyinə mühüm töhfələr verəcək. Qanun layihəsinin lehinə səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, belə təqdimata görə minnətdarlığımı bildirirəm. Bu qanun layihəsinə daha iki

komitədə baxılıb. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılıb. Mən indi Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili**, *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, hörmətli Kamal müəllim qanun layihəsi haqqında ətraflı məlumat verdi. Qanun layihəsi bizim komitədə də Dövlət Vergi Xidməti orqanlarının əməkdaşlarının iştirakı ilə geniş müzakirə edilmişdir və deputat həmkarlarımın çoxsaylı suallarına geniş də məlumat verilmişdir.

Xatırladım ki, Dövlət Vergi Xidməti Azərbaycanda dövlət büdcəsinin gəlirlərinin yığılmasında müstəsna xidmət və əhəmiyyətə malikdir. Belə ki, yığılan 22,5 milyard manatlıq fiskal gəlirlərin 78 faizi məhz Dövlət Vergi Xidmətinin əməkdaşları tərəfindən yığılır. Eyni zamanda, xatırladım ki, son illər ərzində bu istiqamətdə aparılan işlər nəticəsində Azərbaycanda könüllü vergi ödəmələrinin həcmi təxminən 93 faizi keçmişdir. Bu da Dövlət Vergi Xidməti əməkdaşlarının effektiv işləməsi ilə yanaşı, eyni zamanda, məhsuldarlıq və innovasiyaların tətbiq edilməsi ilə bağlıdır.

Qanun layihəsinin maliyyə yükü cəmi 4,9 milyon manatdır və 2700-ə yaxın vəzifəli vergi xidməti əməkdaşını əhatə edəcək. Düşünürəm ki, sənəd, bütövlükdə, "Dövlət qulluğu haqqında" Qanuna uyğunlaşdırma bu istiqamətdə həm maliyyə mühasibatı uçotunun aparılmasında, həm də bütövlükdə, vahid yanaşmanın tətbiq edilməsində çox mühüm rol oynayacaq. Komitənin rəyi müsbətdir. Həmkarlarımdan qanun layihəsini dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Sənədə Əmək  və sosial siyasət komitəsində də baxılıb. Mən hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**M.Quliyev**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar. "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də təklif olunan dəyişikliklər qanun layihəsinin subyektinin nümayəndəsinin iştirakı ilə bizim komitədə ətraflı müzakirə edilmiş, layihəyə müsbət rəy verilmiş və Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunmuşdur. Qanun layihəsinin mahiyyəti və əsas parametrləri haqqında hörmətli millət vəkili həmkarlarımız Kamal Cəfərov və Tahir Mirkişili ətraflı məlumat verdilər. Mən yalnız komitəmizlə bağlı demək istəyirəm ki, əsasnaməyə təklif edilən əmək münasibətləri və sosial təminatlar sahəsində dəyişikliklər də dövlət qulluğunun xüsusi növü olan digər qurumların fəaliyyət prinsiplərinə uyğunlaşma xarakteri daşıyır. Əmək münasibətlərinin bəzi məsələləri bu əsasnamə ilə, bəzi məsələləri isə Əmək Məcəlləsi ilə tənzimlənəcək.

Eyni zamanda, əsasnamədə yeni bir fəsil – 5-1-ci fəsil əlavə olunub. Burada vergi xidməti orqanlarının vəzifəli şəxslərinin sosial müdafiəsi, sosial təminat məsələləri öz dəqiq əksini tapıb və dövlət qulluğunun digər xüsusi növündə olanlarla eyniləşdirilib. Qanun layihəsi konseptual baxımdan birinci oxunuşun tələblərinə cavab verir. Deputat həmkarlarımı qanun layihəsini dəstəkləməyə dəvət edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. Mən baxıram, çıxış etmək istəyən yoxdur. Ona görə də qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti, 17-ci məsələ "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün Məlahət xanım İbrahimqızıya söz verirəm. Məlahət xanım, buyurun.

**M.İbrahimqızı**. Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli xanım sədr, bu təqdimatdan öncə Sizin dünyanın ən mötəbər beynəlxalq parlament təşkilatları olan Parlamentlərarası İttifaqın Assambleyasında, eləcə də Asiya Parlament Assambleyasının koordinasiya iclasında, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin konfransında iştirakınız və səfər çərçivəsində keçirdiyiniz uğurlu görüşlərə görə Nəsimi rayon ictimaiyyəti və seçicilərim adından Sizə təşəkkür edirəm. Həqiqətən də, görülən bütün bu işlər Azərbaycanın beynəlxalq aləmdə imicinin artırılmasına parlament tərəfindən verilən çox böyük töhfədir.

Hörmətli həmkarlarım, bildiyimiz kimi, əhaliyə göstərilən pensiya xidmətlərinin elektronlaşdırılması səviyyəsinin yüksəldilməsi, eləcə də elektron pensiya təyinatı sisteminin əhatə dairəsinin genişləndirilməsi, güzəştli şərtlərlə pensiya təyinatı zamanı vətəndaşların müraciət

etmək, habelə müxtəlif sənədlər toplamaq və sair öhdəliyin ləğv edilməsi məqsədi ilə “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda 2022-ci il 13 may tarixli Qanunla edilmiş dəyişikliklə qanunun 8-ci maddəsində nəzərdə tutulan şəxslərə də avtomatlaşdırılmış qaydada pensiya təyinatı imkanı yaradılmışdır. Lakin təcrübədə uşaqlara görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ olan şəxslərin uşaqlarını 8 yaşınadək böyütməsi faktını təsdiq edən elektron məlumat bazasının olmaması bu xidmətin avtomatlaşdırılmasına mane olur. Əvvəlki təcrübədə qeyd olunan fakt yerli icra hakimiyyəti başçısının müvafiq inzibati ərazi dairəsi üzrə və ya sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsinin təqdim etdiyi arayış əsasında həyata keçirilirdi. Həmin qanunların qeyd olunan məsələ ilə bağlı elektron resursunun mövcud olmaması 8-ci maddə üzrə hüququ yaranan şəxslərə avtomatlaşdırılmış qaydada pensiya təyinatına imkan vermirdi. Möhtərəm Prezidentimizin imzası ilə müzakirəyə təqdim olunmuş qanun layihəsinə əsasən, bu tələb aradan qaldırılacaq, pensiya hüququ yaranmış həmin şəxslər heç bir müraciət etmədən onlara pensiya təyin ediləcəkdir.

Bundan əlavə, layihədə öz əksini tapan ikinci təklif sui-istifadə imkanının aradan qaldırılmasını nəzərdə tutur. Belə ki, qanunun 8.1-ci maddəsinin qüvvədə olan redaksiyasına əsasən, qadınlar öz uşaqlarından əlavə uşaqları övladlığa və ya qəyyumluğa götürüb 8 yaşınadək tərbiyə etdikdə və bu uşaqların sayı qadının öz uşaqları ilə birlikdə 5 və ya daha çox olduqda həmin şəxslər çoxuşaqlı ana kimi 5 il erkən pensiya hüququ əldə edirlər. Bu hal sui-istifadəyə də gətirib çıxara bilər. Belə ki, əgər qadının 4 uşağı varsa, yaxın qohumlarının və digər şəxslərin

uşaqlarını övladlığa götürərək 5 uşaq sayının tamamlanması nəticəsində pensiya hüququ əldə edə bilər. Təklif olunan dəyişiklik qəbul edilərsə, yuxarıda qeyd olunan sui-istifadə hallarının qarşısını alır. Belə ki, yalnız valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşağı övladlığa götürüb 8 yaşınadək tərbiyə edən həmin kateqoriyadan olan qadınların, eləcə də əlilliyi müəyyən edilmiş uşağı olan şəxslərin də erkən pensiya hüququ yaranacaq. Bu isə, həqiqətən, övladlığa və qəyyumluğa götürülməyə ehtiyacı olan, analoji dövlət müəssisələrində yerləşdirilmiş uşaqların ailə qayğısı ilə əhatə olunmasını stimullaşdıracaq, eləcə də bu alətdən sui-istifadə imkanını aradan qaldıracaq.

Həmçinin yeni dəyişikliyə əsasən, kişilərə münasibətdə qadın vəfat etdiyi və uşağın kişinin, atanın himayəsində olduğu və növbəti ailə qurduğu halda da kişilərin tələb olunan şərtlər daxilində 5 il erkən pensiya hüququ tanınacaq. Hörmətli həmkarlarım, xahiş edirəm ki, təklif olunan dəyişikliklərə səs verəsiniz. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Məlahət xanım. Hicran xanım, məsələyə sizin komitənizdə də baxılıb. Xahiş edirəm, rəy bildirin.

**H.Hüseynova**. Deməli, zamanla qanunvericilikdə qadınlarla kişilərin hüquq bərabərliyinin təmin edilməsi istiqamətində çoxlu sayda əlavə və dəyişikliklər aparılıb və qeyd etməliyəm ki, mövcud qanunvericilik bazası gender ekspertizasından keçirilir və davamlı olaraq təkmilləşdirilir.

“Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda təklif olunan dəyişikliyə əsasən, analarla yanaşı, atalar da uşaqlara görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququna malik olacaqlar və

əmək pensiyalarının tətbiqində gender bərabərliyinin təmin olunması həm də vətəndaşlarımızın konstitusion hüquqlarının da müdafiəsi deməkdir.

Qanun layihəsi komitədə müzakirə edilmişdir, əlavə və təkliflər olmamışdır, rəyimiz müsbətdir və xahiş edirik ki, səsə qoyulsun. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Yazılanlar var. Razi Nurullayev, buyurun.

**R.Nurullayev**. Hörmətli Sahibə xanım, hörmətli deputatlar! Əmək pensiyasına edilən dəyişiklik normaldır. Bununla da 5 uşaq və daha çox uşaq böyüdən valideyn 5 il tez pensiya hüququ əldə edəcək.

2019-cu il siyahıyaalınmasına əsasən, Azərbaycanda 6 və daha çox uşağı olan 16 min 169 ailə mövcuddur. Hazırda 110 min ailədə 4 və daha çox uşaq var. Amma 5 uşaqlı ailələrin sayını, təəssüf ki, müəyyən edə bilmədim. Müəyyən etdim ki, hazırda 5-dən çox uşağı olduğuna görə sosial müavinət alan qadınların sayı 2600 nəfərdir. Bu, çox kiçik rəqəmdir. Bizə müraciət edən və kömək istəyən anaların sayı fonunda hətta gülünc rəqəmdir.

Sonuncu siyahıyaalmada 2 milyon 293 min ailə qeydiyyatdan keçib. 1 milyon 347 min ailədə isə 18 yaşadək uşaqlar var. Dəqiq məlumdur ki, 6 və daha çox uşağı olan 16 min 169 ailə bu dəyişiklikdən yararlanacaq. Beş uşaqlı ailələr isə, təxmini, olsun 30 min ailə. Aşağı-yuxarı 45-50 min arası ailə yararlanacaq bu dəyişikliklərdən. 1 milyon 347 min uşaqlı ailənin cəmi 45 mininin əhatə olunması, məncə, ədalətli deyil. Təklif edirəm, bu məsələ elə tənzimlənsin ki, heç olmasa, 347 min uşaqlı ailə bu dəyişiklikdən yararlana bilsin. Yenə də 1 milyon ailəni kənarda qoymuş oluruq. Amma təmsil etdiyim Milli Cəbhə Partiyasının təklifi budur ki, pensiya yaşı həm

kişilər, həm də qadınlar üçün azaldılsın. Kişilər üçün 62, qadınlar üçün 60 yaş həddində müəyyənləşdirilsin. Təklifimizin səbəbi isə vətəndaşlarımıza tələb olunan səviyyədə tibbi və sosial təminat verə bilməməyimiz, son zamanlar isə vətəndaşların pensiya yaşına çatmadan vəfat etməsi hallarının çoxalmasıdır.

İkinci bir məsələ isə pensiya yaşına çatmağa bir neçə ay, bir neçə il qalmış şəxslər vəfat edəndə onlara dəfn pulunun verilməməsidir. Bu məsələni bir dəfə burada qaldırmışdım və o zaman deyildi ki, məsələ həllini tapacaq. Hörmətli Musa müəllim də bununla bağlı fikrini bölüşdü. Təklif edirəm ki, pensiya yaşına çatmağa 5 il qalmış dünyasını dəyişən şəxslərə də dəfn pulu verilsin. Bununla bağlı daha çox müraciətlər daxil olur. Çünki son illər vətəndaşlar pensiya yaşına çatmadan dünyasını dəyişirlər. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Aydın Hüseynov.

**A.Hüseynov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hər birimizə məlumdur ki, ölkədə aparılan sosial siyasətin ən başlıca istiqamətlərindən biri də pensiya təminatının yaxşılaşdırılması, təkmilləşdirilməsidir. İndi müzakirə etdiyimiz "Əmək pensiyaları haqqında" Qanun da bu kateqoriyadandır və qanunun, – bayaq çox hörmətli Məlahət xanım təqdim etdi, – başlıca mahiyyəti elektronlaşma səviyyəsinin yüksəldilməsi, elektron məlumat baza sisteminin yaradılması və nəticədə şəffaflığın təmin olunmasıdır. Bununla biz sui-istifadənin aradan qaldırılmasını təmin etmiş olacağıq. Bu, çox mühüm addımlardan biridir və ümumiyyətlə, biz özümüz də şahidi oluruq ki, bu sahədə, yəni pensiya təminatı və bütövlükdə, sosial təminat sahəsində elektron bazanın yaradılması şəffaflığın təmin olunmasını təmin edən ən vacib keyfiyyətlərdən

biridir. Bayaq təqdimatda da qeyd olundu ki, əgər əvvəllər bu, icra hakimiyyətinin müvafiq şöbələri tərəfindən təqdim olunan siyahılar üzrə həyata keçirilirdisə, indi avtomatlaşdırılmış şəkildə bu pensiya hüququ veriləcək.

Elə mən bununla bağlı bir fikrimi də səsləndirmək istəyirəm. Çünki burada söhbət güzəştli şərtlərlə yaşa görə əmək pensiyasından gedir. Bu güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ alanların təsbit olunduğu siyahılar var. Müvafiq dövlət qurumlarının təsdiq etdiyi bu siyahılarda hansı peşələrdə çalışanların güzəştli şəkildə əmək pensiyasına çıxa biləcəyi göstərilib. Bu peşələr sırasında kran maşinistləri və kran operatorları da var. Əlbəttə, bu kimi peşələr çox dəqiq şəkildə attestasiya olunur, müəyyənləşdirilir. Bütün bunların hər biri elmi əsaslarla və qanun çərçivəsində öz həllini tapır. Burada hansı fikri demək istəyərdim. Qaradağ rayonunda yerləşən Dərin Özüllər Zavodu və bu zavodun sifarişini həyata keçirən "BOS Shelf" şirkəti var. Orada çalışan kran işçilərinin də iş şəraiti müvafiq dövlət orqanının müəyyən etdiyi siyahının tələblərinə uyğundur. Bütövlükdə, kateqoriya baxımından həmin kran işçilərinin də zərərli iş yerləri sırasına daxil olmasına baxmayaraq, güzəştli əmək pensiyasına çıxmaq hüququ onlara şamil olunmur. Mən bu məsələni daha detallı şəkildə çox hörmətli Musa müəllimə təqdim edəcəyəm. Həmin şəxslərin də güzəştli şərtlərlə pensiyaya çıxmasının təmin olunması məsələsi, hesab edirəm ki, ədalətli həllini tapmalıdır. Qanun layihəsinə səs verəcəyəm, təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sabir Rüstəmxanlı. Buyurun.

**S.Rüstəmxanlı**. Təşəkkür edirəm, hörmətli sədr. Ümumiyyətlə, bizdə ana, uşaq problemi ətrafında deyiləsi çox sözlər var. Bu barədə çox ciddi düşünmək lazımdır.

Götürək elə uşaq pulunun verilməməsini. Azərbaycanda, mənə elə gəlir ki, əhalinin sayının əvvəlki illərə nisbətən çox ləng artması – hamısı bir-biri ilə bağlıdır. Cavan qızlar ana olmaq istəmirlər və bir uşaqla da ailələr xoşbəxt ola bilməz. Bilmirsən, o bir uşağın taleyi sonra necə olacaq. Yəni ailə məsələsi, gender proqramı, ailə nizamlanması – bunlar nəyə xidmət edir, hansı gizli layihənin bir hissəsidir, bunu başa düşmək olmur. Biz də bu uşaq pulunu kəsməklə bir növ həmin o proqrama, o layihələrə dolayı yolla kömək edirik. Ona görə də 5 uşaq saxlayan anaların təqaüdə çıxmaq yaşının 5 il irəli çəkilməsi çox ciddi məsələdir, vacibdir. Mən hesab edirəm, buna heç kim etiraz eləməz.

Ümumiyyətlə, bütün əhalinin pensiyaya çıxmaq yaşına yenidən nəzər salmaq lazımdır. Burada məndən əvvəl deyildi. Mənim əlimdə rayonlardan gəlmiş məktublar var, müraciətlər var. Məsələn, Ağdaş rayonundan veteranlar yazırlar ki, bizi nəzərə almaq lazımdır: 65 yaş çoxdur, xahiş edirik, biz veteranların pensiyaya çıxmaq yaşını 60-a endirəsiniz. Yaxşı, 60 olmasın, burada deyildi, 62-yə endirilsin. Qadınların pensiyaya çıxmaq yaşı yenə bir neçə il irəli çəkilsin.

Burada deyilir, sui-istifadə eləyərlər, gedib kənardan uşaq tutub saxlayarlar, filan. Bunlar gülünc söhbətlərdir, buna yol verməmək üçün, ümumiyyətlə, qadınların, anaların pensiyaya çıxmaq yaşını irəli çəkmək lazımdır. Dövlət idarələri bu barədə fikirləşsin, nə şəkildə eləmək lazımdır. Hər halda 65 yaş, nə bilim, 62 yaş Azərbaycanda təqaüdə çıxmaq üçün çox yüksək rəqəmdir. Biz uzunömürlülər vətəni deyirik, amma o uzunömürlülər artıq nağıl kimi keçmişdə qaldı. Bunu nəzərə almalıyıq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Qanun layihəsi çox vacib qanun layihəsidir, mən də dəstəkləyirəm.

Bir məsələyə toxunmaq istəyirəm. Təbii ki, burada fərqliliyi nəzərə almaq lazımdır. Mən hesab edirəm ki, konkret rəqəm deyil, uşaqların sayına görə müəyyən faizlər tətbiq olunsa, daha məqsədəuyğun olar. Əgər biz güzəştləri və digər məsələləri üç uşaqdan sonra başlasaq, bu daha məqsədəuyğun şəkildə həyata keçər.

Digər bir tərəfdən, hörmətli həmkarlarım burada məsələ qaldırdılar, Azərbaycanda tibbi xidmətlərlə bağlı. Bilirsiniz ki, cənab Prezident tərəfindən 20 illik fəaliyyəti dövründə 700-dən yuxarı tibb müəssisəsi tikilib, istifadəyə verilib, o cümlədən diaqnostika mərkəzləri. Bizim ən ucqar rayonlarda müasir standartlara cavab verən xəstəxanalar və avadanlıqlarla təmin olunan tibb müəssisələri var. Azərbaycanda tibbin səviyyəsi heç də aşağı deyil. Azərbaycanda səhiyyə yüksək səviyyədə xidmət göstərir və insanlar da özləri müraciət etməlidir. İnsanları ildə 2 dəfə pulsuz tibbi müayinədən keçirmək heç bir ölkədə yoxdur. Cənab Prezidentin tapşırığı ilə bütün vətəndaşlarımıza müraciət olunub ki, ildə 2 dəfədən çox tibbi müayinədən keçsinlər.

Eyni zamanda, bizim həkimlərimiz səyyar şəkildə ucqar regionlara gedirlər, orada müayinələr aparırlar. Elə bu yaxınlarda Azərbaycana ən müasir standartlara cavab verən 100-dən artıq təzə təcili yardım maşınları gətirilib. Bu, dövlətin bilavasitə vətəndaşa ciddi qayğısının bariz nümunəsidir.

Başqa bir tərəfdən, biz tibbi sığortanı tətbiq etmişik. Televiziyalarda aparılan müsahibələrdə də göstərilir ki,

vətəndaşlarımız hamısı bu tibbi sığortadan razıdırlar və öz razılıqlarını bildirirlər.

Başqa bir məsələyə toxunmaq istəyirəm. Burada yaşla bağlı olan məsələlər qaldırıldı. Mən bir neçə dəfə demişəm, bu, kateqoriyaya bölünməlidir. Bu gün hansı müəllimi 65 yaşında təqaüdə göndərmək istəyirsən razılıq vermir. Bütün qapıları döyür ki, mən niyə təqaüdə getməliyəm, mən hələ öz biliklərimi yeni nəsillərə çatdırıram. Mən hələ ali məktəb müəllimlərini demirəm. 65 yaşında doktorluğu təzə müdafiə etmiş, professorluğunu təzə almış adamı təqaüdə göndərməyə də heç kim razılaşmır. O cümlədən səhiyyə sahəsində işləyən həkimlərimiz, tibb bacısından tutmuş orada işləyən bütün insanlar heç biri bununla razılaşmırlar. Xahiş edirlər ki, 1 il, 2 il bunun müddəti uzadılsın.

Əgər neft şirkətində işləyən 65 yaşında təqaüdə göndərilirsə, ağlaya-ağlaya gedir. Yəni biz hamısını eyni tərəziyə qoymamalıyıq. Təbii ki, başa düşürəm, ağır sahələr var. Nazirlər Kabinetinin də siyahısı var ki, bu 300-dən artıq ağır sahədə işləyən insanlar hansı yaşda təqaüdə çıxa bilərlər. Ona görə də qurunun oduna yaşı da yandırmaq olmaz. Mən hesab edirəm ki, bu məsələlərə diqqətlə yanaşmalıyıq.

Elmlər Akademiyası, elm sahələri, dövlət qulluğunda çalışanlar da və digər sahələr var ki, heç biri 65 yaşında təqaüdə getmək istəmir. İstəyir ki, özünün cəmiyyətdə faydalılığını sübut eləsin. Mən başa düşürəm, 65 yaşında kişi gedib daş qaldıra bilməz, bina tikə bilməz. Bu sahələr nəzərə alınmalıdır. Amma 65 yaşında insan auditoriyaya girib, 30, 35 yaşındakından daha yaxşı mühazirə oxuyub öz təcrübəsini gənc nəsillərə çatdıra bilər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sabir müəllim, Sizin sualınız var?

**S.Rüstəmxanlı.** Sözüm Siyavuş bəyədir, mənim həmkarıma. Təqaüdə çıxmaq, Siyavuş müəllim, insanı işdən məhrum eləmək demək deyil. İnsan yaşayıb 60 il, 65 il, işləyib, indi istəyir, təqaüdə çıxsın, pensiyasını alsın. İmkan varsa, yenə işini davam etdirsin. Kim deyir ki, təqaüdə çıxan işdən məhrum edilməlidir? Ona görə o məsələləri bir-birinə qarışdırmaq lazım deyil.

**Sədrlik edən.** Bunu işçi qaydada aranızda danışarsınız. Ancaq bu gün bizim qanun layihəmiz tamamilə ayrı bir məsələyə aiddir. Xahiş edirəm, qanun layihəsi çərçivəsində danışın. Musa müəllim, buyurun.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Çıxış edən bütün deputat həmkarlarıma layihəni dəstəklədiklərinə görə minnətdarlığımı bildirirəm. Deyildiyi kimi, çox vacib layihədir və sosial müdafiəni gücləndirən bir layihədir.

Burada suallar verildi. Ona görə istəyirəm, suallara aydınlıq gətirəm, çıxışa da ona görə yazıldım. Hörmətli Razi müəllim dəfn pulu məsələsi ilə bağlı sual qaldırdı. Belə ki, bütün pensiyaçılar və sosial müavinət alan pensiya yaşında olan insanlar dünyasını dəyişəndə dəfn pulu verilir. Həmçinin işləyən insanlar da dünyasını dəyişəndə dəfn pulu verilir. İşləməyən və pensiya yaşına çatmamış şəxslər dünyasını dəyişəndə dəfn pulunun verilməsi məsələsi isə bu saat müzakirə olunur və mən indi Əmək və Əhalinin Sosial Mudafiəsi Nazirliyi ilə əlaqə saxladım. Hazırda layihə razılaşdırılmaq üçün müvafiq qurumlara göndərilib. Yəqin ki, yaxın vaxtlarda bu məsələ də öz həllini tapacaq.

5 uşaqlı ailələrin sayı ilə bağlı, hörmətli Razi müəllim, 5,

4, 3, 2 uşaqlı ailələrin sayı haqqında məndə məlumat var. Amma əlimin altında olmadığına görə, qorxuram, səhv rəqəm deyəm. İstəyərsiniz, yaxınlaşarsınız, bütün rəqəmləri mən Sizə verərəm. Dövlət Statistika Komitəsinin hesabatında, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin saytında da bu rəqəmlər var. Oradan da tapa bilərsiniz.

Hörmətli Aydın müəllim burada peşələrlə bağlı – konkret krançı peşəsində işləyənlərin pensiyaya tez çıxması məsələsini qaldırdı. Nazirlər Kabinetinin xüsusi qərarla təsdiq etdiyi əsasnamə var və orada siyahı var. O siyahıya görə 600-ə yaxın peşə və ixtisas üzrə çalışan insanlar vaxtından əvvəl pensiyaya çıxmaq hüququ əldə edirlər. Burada hətta 50 yaşında da pensiyaya çıxmaq hüququ var. Bunlar "Əmək pensiyaları haqqında" Qanunda xüsusi təsbit olunub.

Pensiya yaşının azaldılması ilə bağlı məsələ uzun müddətdir həm sosial şəbəkələrdə, həm cəmiyyətdə, həm də millət vəkilləri tərəfindən müzakirə olunur. Dünyanın heç bir ölkəsində hazırda pensiya yaşının azaldılması məsələsinə qanunvericilik çərçivəsində baxılmır. Əslində, artırılması məsələsindən söhbət gedir. Çünki uzun ömürlülük artıb. Bu gün bizdə – Azərbaycanda 1 milyon 100 min pensiyaçı var və 2030-cu ildə, yəni təxminən 6 ildən sonra pensiyaçıların sayı 1 milyon 300 minə çatacaq. 2040-cı ilə olan proqnoz isə 1 milyon 600 mini keçir. Yəni bu məsələlər insan ömrünün uzanması ilə bağlıdır.

Burada problem nədən ibarətdir? Biz muzdlu qaydada işləyən insanlarımızın sayını artırmağa çalışmalıyıq. Bizim 5 milyon 300 min iqtisadi fəal əhalimiz var. Bunlardan yalnız 1 milyon 700 mini muzdlu qaydada əməklə məşğuldur. Yəni əmək müqaviləsi bağlayıb və sosial sığorta ödəyir.

Kənd yerlərində yaşayanlara, bəli, böyük güzəştlər var. Onların sosial sığorta haqları çox simvolikdir. Amma bizim təxminən 1 milyon 700 min, bəlkə də 1 milyon 800 min insanımız faktiki olaraq sosial sığorta ödəmədən əmək fəaliyyəti ilə məşğuldur. Yəni istər özəl sahədə məşğuldurlar, istər qeyri-rəsmi məşğuldurlar, əgər bunlar əmək müqaviləsi bağlasalar, həm Dövlət Sosial Müdafiə Fondunun imkanları artacaq, həm də bu insanların gələcəkdə əmək pensiyası almaq məsələsi həll olunacaq. Əlbəttə, bunlar hamısı birinci növbədə vəsaitlə bağlı məsələlərdir. Digər tərəfdən, pensiya məsələsində, ümumiyyətlə, sosial strategiya müəyyənləşəndə 5 il, 3 il müddət üçün nəzərdə tutulmur, azı 30 illik bir müddət götürülür – 30 il ərzində hansı demoqrafik proseslər gedəcək, iqtisadi, əmək münasibətləri necə inkişaf edəcək və sair. Buna görə də mən xahiş edirəm ki, belə məsələləri diqqətdə saxlayasınız. Təşəkkür edirəm. Qanun layihəsinə səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim.

Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Əminə xanım Ağazadəyə söz verirəm. Əminə xanım, buyurun.

**Ə.Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Təqdim edilən qanun layihəsi hal şahidlərinin inzibati xətalar üzrə icraat prosesinə cəlb edilməsini aradan qaldırmağı nəzərdə tutur. Burada məqsəd inzibati xətalar üzrə icraatın sadələşdirilməsinə, tezliyin təmin edilməsinə, insan hüquqlarının daha səmərəli həyata keçirilməsinə nail olmaqdır.

Bildiyimiz kimi, inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında vəzifəli şəxs tərəfindən hal şahidləri dəvət olunur və  bir sıra tədbirlər həyata keçirilərkən bu, məcburi xarakter daşıyır.

Qanun layihəsinə əsasən isə bütün hallarda hal şahidlərinin iştirakı aradan qaldırılmaqla, bu tədbirlərin fasiləsiz videoçəkiliş aparılmaqla həyata keçirilməsi təklif edilir. Həyata keçirilən tədbirlər haqqında protokol tərtib olunur. Bu protokolda fasiləsiz videoçəkilişdən istifadə barədə müvafiq qeydlər aparılır və videoçəkilişi əks etdirən məlumatların daşıyıcısı həmin protokola əlavə olunur.

Hörmətli deputatlar, qeyd etmək istəyirəm ki, oxşar dəyişikliklər Milli Məclis tərəfindən 2016-cı ildə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində də edilmişdir. Şəxsi axtarışla bağlı hüquqi norma 92.2-ci maddədə hal şahidlərinin iştirakının aradan qaldırılması ilə

əlaqədar yenidən hazırlanaraq, həm də maddənin qüvvədə olan redaksiyasından fərqli olaraq qanunda tam ətraflı şəkildə müəyyən edilir. Belə ki, qüvvədə olan redaksiyada şəxsi axtarışın hansı hallarda aparılma imkanı, axtarışın şəxsin soyundurulması ilə müşayiət edildikdə prosedurun necə aparılması ilə bağlı bir boşluq var idi. Ona görə bir daha qeyd etmək istərdim ki, 92.2-ci maddə yeni redaksiyada verilərək və yeni 92.2-1-ci maddə əlavə olunmaqla bu proses müfəssəl şəkildə qanunda öz əksini tapmış olur.

Layihədə təqdim edilən digər bir təklifə əsasən isə barəsində inzibati icraat aparılan şəxsin və zərər çəkmiş şəxsin razılığı olmadan inzibati xəta haqqında iş üzrə icraat zamanı foto və ya video çəkilişin, yaxud səsyazma materiallarının media subyektinə təqdim olunması inzibati məsuliyyətə səbəb olacaq.

Hesab edirəm ki, təkliflər müsbət dəyişikliklərdir. İşin obyektivliyinə xidmət edən dəyişiklikdir. Həmkarlarımdan da qanun layihəsini dəstəkləmələrini xahiş edirəm. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---:|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" Qanunda və digər 2 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirməliyik, müzakirə etməliyik. Bu, 19-cu məsələmizdir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, mən Sizə söz verirəm. Xahiş edirəm, məlumat verin.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, 4 qanun layihəsinə edilən dəyişikliyin 3-ü, yəni Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Gömrük tarifi haqqında" qanunlarda edilən dəyişiklik sırf texniki xarakter daşıyır. Belə ki, hər 3 qanun layihəsində müvafiq icra hakimiyyəti orqanının "qərarına əsasən yaradılan" sözləri müvafiq icra hakimiyyəti orqanının "müəyyən etdiyi orqanın (qurumun) yaratdığı" sözləri ilə əvəz olunur ki, bu da bu gün real təcrübədə baş verən bir hadisədir.

4-cü qanunda, yəni "Reklam haqqında" Qanunda edilən dəyişiklik isə bir az fərqli xarakter daşıyır. Belə ki, mövcud qanunvericiliyə görə hazırda ölkədə sayı 1-dən çox olmayan və həcmi də 1 kvadratmetrdən çox olmayan reklam lövhələri pulsuz reklam lövhələri sayılır. Bu, reklam sayılmır və buna görə hər hansı bir rüsum ödənilmir. Amma məlumdur ki, sənaye parklarında və texnologiya parklarında reklam lövhələrinin, yəni adı bildirən və yaxud da ünvanı bildirən lövhələrin həcmi kifayət qədər böyük olur. Qanunda təklif edilən dəyişikliyə əsasən artıq bundan sonra sənaye parklarında, sənaye məhəllələrində və aqroparklarda sayı 1-dən çox olmayan, həcmi isə 20 kvadratmetri keçməyən lövhələr

reklam sayılmayacaq və buna görə hər hansı bir rüsum da tutulmayacaq.

Hər 4 qanun layihəsi komitə tərəfindən müsbət qarşılanıb. Həmkarlarımı da layihəyə səs verməyə çağırıram.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Musa müəllim, sizin də komitənizdə baxılıb. Xahiş edirəm, rəy bildirin.

**M.Quliyev.** Çox sağ olun, hörmətli xanım sədr. Komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən var. Fəzail Ağamalı. Fəzail müəllim, buyurun.

**F.Ağamalı.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Təqdim edilən qanun layihəsi kifayət qədər mütərəqqidir. Layihədə vergidən azadolma, vergi, sosial sığorta və reklamlarda nəzərdə tutulan güzəştlər və bu güzəştlərin tətbiq olunduğu sahələrdə stimullaşmanın reallaşması nəzərdə tutulur. Əlbəttə, bu, mütərəqqidir və buna səs verəcəyik. Buna mənim qətiyyən şübhəm yoxdur.

Bununla bərabər, demək olar, hər iclasda Vergi Məcəlləsində bu və ya digər şəkildə dəyişikliklər qəbul edirik. Bu dəyişikliklər həm vergi qurumlarında, həm də vergi ödəyicilərində müəyyən problemlər yaşadır. Yəni edilən dəyişikliklər hələ 1 ilmi, ya 2 ilmi müddət keçmədən belə özləri də dəyişikliklərə məruz qalır. Ona görə də, hörmətli xanım sədr, mən təklif edərdim ki, Milli Məclisin müvafiq komitəsi, Tahir Mirkişili, təbii, belə bir təşəbbüslə çıxış etsin ki, yeni Vergi Məcəlləsi işlənib hazırlansın və qəbul edilsin. Bu gün buna ehtiyac var və mənə elə gəlir ki, çox mütərəqqi olardı.

İkinci, imkandan istifadə edərək, mən də Sizin Cenevrə səfərinizi çox yüksək qiymətləndirirəm və hörmətli

həmkarlarımın söyləmiş olduğu fikirlərlə tamamilə şərikəm. Nəzərə almaq lazımdır ki, ölkə Prezidentinin həyata keçirmiş olduğu xarici siyasətin bütün tərəfləri Azərbaycanın beynəlxalq səviyyədə nüfuzunun və gücünün artmasına kifayət qədər təsir göstərir. Bu baxımdan töhfələr göz önündədir.

Bu baxımdan xarici siyasət təkcə Xarici İşlər Nazirliyi səviyyəsində deyil, eyni zamanda, ən müxtəlif platformalar çərçivəsində də şaxələndirilmiş şəkildə həyata keçirilir. Xarici siyasət beynəlxalq səviyyədə haqq işimizi təqdim etməkdə, həm də bizə qarşı yönəlmiş olan bu və ya digər qərəzli və böhtanlı informasiyaların qarşısını almaqda özünün töhfəsini verir. İndi son vaxtlar, – bunu etiraf etmək lazımdır, mübaliğəyə də ehtiyac yoxdur, – Sahibə xanım, Sizin parlament xətti ilə keçirmiş olduğunuz görüşlər və bunun parlament diplomatiyası kimi dövlətimizə vermiş olduğu əhəmiyyətli töhfələr göz önündədir. Bu baxımdan Parlamentlərarası İttifaqın təşəbbüsü ilə keçirilən Cenevrə görüşünüz xüsusi əhəmiyyət kəsb edir. Nəzərə alsaq ki, orada həm Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin, həm də Asiya Parlament Assambleyasının tədbirləri də keçirildi və hər iki quruma Azərbaycan Sizin timsalınızda sədrlik edir, Avropa məkanında bu şəkildə çıxış etmək, iştirak etmək çox önəmlidir. Həqiqətən, dövlətimizə nüfuz gətirən amillərdən biridir.

Sizin orada keçirmiş olduğunuz çoxsaylı görüşlər haqqında da biz mətbuatdan kifayət qədər məlumatlar aldıq. Təbii ki, bütün bunların hamısı, bir daha təkrar edirəm, Azərbaycan Respublikasının dünyada, xüsusi ilə Avropa məkanında nüfuzunun və gücünün artmasına ciddi töhfələr verir, bizə qarşı yönəlmiş olan böhtanların,

iftiraların ifşa olunmasında çox həlledici rol oynayır. Sizə bundan sonrakı fəaliyyətinizdə də uğurlar diləyirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz 20-ci məsələdir. Mülki Məcəllədə və "İpoteka haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, mən yenə də Sizə söz verirəm. Xahiş edirəm, məlumat verin.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, qanun layihəsi iki mühüm məsələnin aydınlaşması məqsədi ilə hazırlanmışdır. Belə ki, ipotekaya xitam verilməsi və borclunun vəfat etdiyi zaman subsidiar zaminliyin nə zaman məsuliyyət daşıması haqqında məsələyə aydınlıq gətirilir.

Subsidiar zaminlik, bildiyiniz kimi, yalnız məhkəmənin qərarı ilə tələbə yönələn zaminlik sayılır. Zaminlik 2 cür olur: ümumi, bir də subsidiar. Bu cəhətdən onun bir

hissəsinin aydınlaşması kifayət qədər əhəmiyyət daşıyır.

Qanunun mövcud versiyasında ipoteka saxlayan tələbdən və ya ipotekadan imtina edərsə, kreditorun mülkiyyətçiyə çevrilməsi haqqında bir cümlə mövcuddur. Hazırda bunu tətbiq etmək ya real deyil, ya da bir çox hallarda isə, düşünürəm ki, qeyri-aydındır. İndi təklif edilən dəyişikliyə görə əgər ipoteka saxlayan tələbdən və ipotekadan imtina edərsə, o zaman ipotekanın mülkiyyətçisi dəyişmir. Yəni olduğu kimi qalır, sadəcə, ipotekaya xitam verilir. Bu, hazırda bir çox hallarda üçüncü tərəf tərəfindən verilən girovluqla bağlı yaranan münasibətlərin daha aydınlaşması məqsədi ilə hazırlanmış və kifayət qədər ədalətli bir yanaşmadır.

İkinci dediyim məsələ isə borclu vəfat edərsə, bu zaman subsidiar zaminliyin nə zaman məsuliyyət daşıması ilə bağlı cümlədir. Belə ki, əgər borclu vəfat edərsə, o zaman miras qəbul edildiyi günədək müddətdə subsidiar zaminin məsuliyyəti dayandırılır. Bildiyiniz kimi, bir neçə gün bundan öncə Konstitusiya Məhkəməsinin də bu haqda bir qərarı olub. Belə ki, şəxs vəfat etdiyi zaman mirasın qəbul edilməsi ilə bağlı məsələlərə aydınlıq gətirilmişdir. İndiyə qədər bildiyiniz kimi, bundan imtina etmək haqqında bir hüquq yox idi, amma bundan sonra əgər mirasçı mirası qəbul edərsə, eyni zamanda, borcu da avtomatik olaraq qəbul etmək kimi bir öhdəlik Konstitusiya Məhkəməsi tərəfindən aydınlaşdırılmışdır. Bu cəhətdən baxsaq, qanunda edilən dəyişiklik həm də bu məsələnin həll olunmasına qədər subsidiar zaminliyin hər hansı bir məsuliyyət daşımaması ilə bağlı ifadəsidir. Bizim komitə hesab edir ki, hər iki dəyişiklik bu istiqamətdə, xüsusən ipoteka kreditləri zamanı münasibətlərin aydınlaşması baxımından mütərəqqi xarakter daşıyır. Biz

hər iki dəyişikliyi dəstəkləyirik və həmkarlarımdan da səs verməlrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılmışdır. Mən indi komitənin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, komitənin rəyini bildirin. Buyurun.

**N.Həsənov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli Tahir müəllim geniş məlumat verdi, bizim komitənin də rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyənlər var. Müzakirəyə keçirik. Siyavuş Novruzov. Buyurun, Siyavuş müəllim.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Tahir müəllim ətraflı şəkildə məlumat verdi. Təbii ki, bu qanun layihəsi özü mütərəqqidir və ipotekanın qaytarılması ilə əlaqədar qoyulan şərtlərin yüngülləşdirilməsi məsələsinə xidmət edir. Amma buna qədər ipotekanın özünün verilməsi şərtlərinin də yüngülləşdirilməsinə bir mütərəqqi yanaşma lazımdır. Biz burada hökumətin hesabatında da, büdcə müzakirə olunanda da vətəndaşlarımıza ipotekanın verilməsi ilə əlaqədar şərtlərin, güzəştlərin yüngülləşdirilməsi haqqında fikirlərimizi qeyd etdik. Dövlət, dövlət başçısı istəyir ki, hər bir vətəndaşı yaxşı yaşasın. Həmçinin vətəndaşımız ipoteka kreditindən istifadə edə bilsin. Amma əfsuslar olsun ki, bu gün ipoteka kreditindən ancaq dövlət qulluğunda çalışan insanlar daha geniş şəkildə istifadə edirlər. Digər şəxslərin ipoteka kreditlərindən bəhrələnmələri çətindir. Götürək, bənna, zərgər, pinəçi, dülgər, bərbər, qaynaqçı, çilingər və sair –

heç biri ipoteka ala bilmir. Bunlar orta və kiçik sahibkarlıqla məşğul olan insanlardır, onların VÖEN-ləri var və digərlərindən fərqli olaraq hər biri vergi ödəyicisidir. Bəs bunlara niyə ipoteka verilmir?

Hörmətli xanım sədr, tədqiqat göstərir ki, indiyə qədər cəmi 3 nəfər jurnalist ipoteka krediti alıb. Halbuki bizdə nə qədər saytlar var, sayt rəhbərləri var, qeydiyyatdan keçmiş jurnalistlərimiz var, onların əməkhaqları da kifayət qədər yüksəkdir. Lakin ipotekaya yanaşanda bunlar hesab edirlər ki, bu işlər onlar üçün müvəqqətidir. Elə adam var ki, 20 ildir eyni saytda işləyir, ancaq dəfələrlə müraciət etməsinə baxmayaraq, bu günə qədər ipoteka krediti ala bilmir. O cümlədən keçən dəfə də burada qeyd etdik ki, kənddə verilən ipoteka ilə şəhərdə verilən ipoteka arasında fərq olmalıdır ki, vətəndaş, gənc ailə, gənc müəllim kənddə yaşaya bilsin və o ipotekanı alaraq özünə mənzil alsın, şərait qursun. Ona görə də ikinci hissəsi yaxşıdır, qaytarılmasını mütərəqqiləşdiririk. Amma verilməsini də mütərəqqiləşdirmək lazımdır, hörmətli Tahir müəllim. Xahiş edirəm, gələn dəfə bu məsələlərə də diqqət yetirilsin. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Rüfət Quliyev, buyurun.

**R.Quliyev**. Təşəkkür edirəm, xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli media nümayəndələri. Mənim deyəcəklərimin bir çoxunu Siyavuş müəllim dedi. İlk öncə deyim ki, mən də hesab edirəm, bu qanun çox mütərəqqi, ədalətli qanundur və vaxtında qəbul olunur. Siyavuş müəllim bir az məni qabaqladı, mənim bir çox fikirlərimi o səsləndirdi. Amma mən də bir balaca fikrimi çatdırım. Təsəvvür edin ki, gənc ailədir, bunlar məktəbdə müəllim işləyirlər və yaxud da kiçik sahibkarlıqla məşğuldurlar. Bunların maaşları o

qədər də çox deyil. Bank isə tələb edir, sizin maaşınız ən azı 1000 manatdan aşağı olmamalıdır ki, mən sizə ev üçün ipoteka verim. Yəni burada məntiq yoxdur, ona görə ki, onsuz da bunlar ipotekaya verilən evə sahib olmurlar. Ona görə mən rəsmi qurumlardan xahiş edirəm, bu məsələyə baxsınlar, yəni insanlar bu ipotekanı daha rahat alsınlar. Əgər gənc ailə ayda 600-700 manata kirayə evdə qalırsa, daha yaxşı olar ki, ipoteka ilə ev alsın və həmin 600-700 manatı aylıq ödəsin. Təşəkkür edirəm, qanuna da səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.47 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz 21-ci məsələyə keçirik. "Media haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirəyə təqdim edilir. Qeyd edim ki, layihə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim edilmişdir. Onu da deyim ki, məsələ ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri hörmətli Ülvi Hüseynli və Aparatın Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri hörmətli Cəlil

Rüstəmov iclasımızda iştirak edirlər. Mən qonaqlarımızı salamlayıram.

Hörmətli həmkarlar, qanun layihəsinə İnsan hüquqları komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri Zahid Oruca söz verirəm. Zahid müəllim, buyurun.

**Z.Oruc**. Təşəkkür edirəm, hörmətli sədr. İş gününün sonu olduğu üçün çox qısa danışacam. Əslində, biz çox xoş məramlı bir layihəni müzakirə edirik. Mahiyyəti ondan ibarətdir ki, biz 2 il öncə az qala iki aydan çox müzakirə edilərək qəbul olunan "Media haqqında" Qanunun 59.2-ci maddəsində Azərbaycan Respublikası Prezidenti tərəfindən siyahısı müəyyən olunan qurumlar, o cümlədən Milli Məclis, Konstitusiya Məhkəməsi və Ali Məhkəmə istisna olmaqla, digər qurumlara çap mediası subyektinin təsisçisi olmağı qadağan etmişdik. İndiki halda isə 103 yaşlı "Şərq qapısı" qəzetinin bu istisnaların içərisinə daxil edilməsi təklif olunur. Həqiqətən də, istər Naxçıvanın özünün muxtar respublika statusu almasından sonrakı sovet dövründə, o cümlədən 1990-cı illərdə Ulu Öndərin Naxçıvana rəhbərliyi zamanı bu qəzet özünün ənənələrini yaradıb və indiki halda biz onu dövlət maliyyəsindən məhrum etdiyimiz şəraitdə qəzet faktiki olaraq fəaliyyət göstərə bilməyəcək. Ona görə də parlament üzvləri bu layihəyə səs verməklə "Şərq qapısı" qəzetinin yaşamasına kömək edəcəklər. Bax, məlumat bundan ibarətdir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Zahid müəllim.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bircə dəqiqə, səsə qoyacağıq, təbii ki, ancaq hələ ondan qabaq mən Əli müəllimə söz verəcəm.

Ancaq, Zahid müəllim, dediniz, iş günümüzün sonudur.

Xeyr, iş günümüzün deyil, iclasımızın sonudur. Hələ iş gününün sonuna var. Əli müəllim, sizin komitənizdə də baxılıb. Xahiş edirəm, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar. Hüquq siyasəti və dövlət quruculuğu komitəsi də Naxçıvan Ali Məclisinə media təsisçisi statusu verilməsinin tərəfdarıdır. Bu barədə bizim müsbət rəyimiz var. Xahiş edirəm, nəzərə alasınız.

**Sədrlik edən.** Çox sağ olun. Hamının təklifi var ki, səsə qoyaq. Etiraz edən yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.51 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız sona çatdı. Növbəti iclasımız ayın 5-də olacaq. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

**Ceyhun Məmmədov.** Erməni daşnaklarının bolşeviklərlə birgə azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımından 106 il ötür. Son iki əsrdə erməni millətçiləri Azərbaycan xalqına qarşı misli görünməmiş etnik təmizləmə və soyqırımı siyasəti həyata keçirmişlər. Bu siyasət nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalaraq min illər boyu yaşadıqları tarixi torpaqlarından didərgin düşmüş, kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərcə tarixi, mədəni abidə və yaşayış məskəni dağıdılmışdır.

Qonşu xalqların torpaqlarını zəbt edərək “Böyük Ermənistan” ideyasını gerçəkləşdirmək məqsədi güdən ermənilər tarix boyu soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Bu soyqırım hadisələrinin ən dəhşətlilərindən biri də daşnak-bolşevik silahlı dəstələri tərəfindən 1918-ci ilin mart-a
aylarında qəddarlıqla törədilmiş kütləvi qırğınlardır.

Təkcə XX əsrin əvvəllərində ermənilərin Bakıda, Şamaxı, Quba şəhərlərində, Göyçayda, Qarabağda, Zəngəzurda, Naxçıvanda və digər bölgələrimizdə xalqımıza qarşı həyata keçirdiyi soyqırımı aktları nəticəsində bu ərazilərdə on minlərcə dinc əhali – qadın, uşaq, qoca yalnız milli mənsubiyyətlərinə görə vəhşicəsinə qətlə yetirilmiş, yaşayış yerləri
edilərək viran qoyulmuş, xalqımızın milli mədəniyyət abidələri, məscidlər dağıdılmış və yandırılmışdır.

Bu faciədə dinc, silahsız türk-müsəlman əhali ilə yanaşı, minlərcə ləzgi, tatar, talış, avar, kürd və digər xalqların nümayəndələri, o cümlədən uşaqlar, qadınlar, qocalar etnik mənsubiyyətlərinə görə amansızcasına qətlə

yetiriliblər. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara və gənc qadınlara da rəhm etməyiblər.

Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan həqiqətlərinin dünyada təbliği, erməni vəhşiliyinin ifşa olunması istiqamətində ciddi addımlar atıldı. Onun xəritə qarşısında əlində çubuqla Dağlıq Qarabağın Azərbaycanın tarixi ərazisi olmasını göstərməsi mənzərəsini çoxumuz yaxşı xatırlayırıq.

Bu gün yeni soyqırımların baş verməməsi üçün insanlarımız arasında birlik və həmrəyliyin olması, tarixdə baş verənləri unutmamaq xüsusi önəm daşıyır.

Yuxarıda qeyd etdiyimiz kimi, ermənilər eyni müsibətləri xalqımızın başına Qarabağda da gətiriblər. Şuşada, Cəbrayılda və Qarabağın digər bölgələrində xalqımıza qarşı bir çox vəhşiliklər törədilib. Qeyd olunanlar nəzərə alınaraq, gələcəkdə 31 Mart soyqırımı zamanı erməni millətçiləri tərəfindən Qarabağ və Şərqi Zəngəzurda da vəhşicəsinə qətlə yetirilən əhalinin xatirəsinin əbədiləşdirilməsi və gənc nəslin bu hadisələri unutmaması üçün abidə ucaldılmasını təklif edirəm.

**Könül Nurullayeva.** "Təhsil haqqında" Qanunda təklif edilən yeni əlavələri dövlətin sosial siyasətinin çox mühüm bir hissəsi kimi qiymətləndirməliyik. Belə ki, icbari təhsil baza təhsili hesab olunur ki, hər kəsin, istənilən vətəndaşın bu hüququ təmin edilməkdədir. Lakin bundan sonrakı mərhələdə, xüsusən təhsil haqlarının ödənişində çətinlik yarananda, təəssüflər olsun ki, bəzi şəxslər təhsilini davam etdirməkdə problemlərlə üzləşirdi. Layihənin mütərəqqi cəhəti istər özəl ali təhsil müəssisələrində, istərsə də peşə təhsili müəssisələrində təhsil alanları əhatə etməsidir. Daha əvvəllər də bu istiqamətdə işlər görülsə də, lakin bu qədər təhsilalanı əhatə edən

layihə təqdim edilməmişdi.

Bu qanun layihəsi sosial müdafiəyə xüsusi ehtiyacı olan bir sıra şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət vəsaiti hesabına ödənilməsi sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır. Yəni bu sahədə qanunvericilik aktları mövcud olsa da, lakin əhatə dairəsi daha məhdud idi, əsasən, valideynlərini itirmiş, yaxud valideyn himayəsindən məhrum olmuş şəxslərin təhsil haqqının büdcə vəsaiti hesabına ödənilməsini nəzərdə tuturdu.

Lakin bu layihəyə əsasən "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununda 14.8-1-ci maddənin yeni redaksiyada verilməsi və mövcud qanunvericilikdə nəzərdə tutulan təhsil xərcləri ilə bağlı azadolmaların, o cümlədən bir sıra yeni imtiyazların qeyd edilən maddəyə əlavə edilməsi nəzərdə tutulur. 8 ənddə kifayət qədər geniş təsir dairəsinə malik təhsilalanlar artıq bu layihənin təsdiqlənməsi ilə güzəştlər əldə edə biləcəklər.

Belə ki, yeni imtiyaz olaraq özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində şəhid ailəsinin üzvlərinin, peşə təhsili müəssisələrində "Müharibə veteranı" adı almış şəxslərin, özəl peşə təhsili müəssisələrində isə əlilliyi olan şəxslərin, 20 yaşına çatmamış və orqanizmin funksiyalarının 81–100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş valideyni olan, aylıq gəliri yaşayış minimumundan aşağı olan şəxslərin ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil xərclərinin dövlət vəsaiti hesabına ödənilməsi nəzərdə tutulur.

Təbii ki, dövlətin bu sahədə sosial siyasəti daha çox təhsildən sonrakı mərhələdə öz uğurlu nəticələrini verəcək. Nəticə etibarı ilə sosial müdafiəyə ehtiyacı olan bir qrup şəxs sonrakı mərhələdə əmək bazarında ixtisaslı kadr

qismində cəlb ediləcəklər. Məlumdur ki, məşğulluğun təmin olunmasında da ən əsas problem hələ də işaxtaranların böyük bir qisminin ixtisaslı kadr olmamasıdır.

# MÜNDƏRİCAT

29 mart 2024-cü il ............................................................... 3
Edilməmiş çıxışların mətnləri............................................. 118

Altıncı çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

On beşinci sessiya
Yaz

65-ci cild

29 mart 2024-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 7,5. Sifariş 55. Tiraj 150.